www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 yanvar 2017-ci il Cümə № 18 (6632) Qiymәti 60 qәpik

**Xəbər**

## Minsk məhkəməsindən son qərar: Lapşin Bakıya verilir

yazısı səh.13-də

**Gündəm**

### "Rossiya-24" kanalının Azərbaycanla bağlı "korluğu"




Rusiya telekanalı niyə Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunlarını "unudub"?; ekspert "siyasi məsələdir" deyir

yazısı səh.7-də

### Süni uşaq qidalarının reklamına qadağa qoyuldu

yazısı səh.4-də

### Nazarbayev Bakı və Ankaraya qarşı - prezidentin şok addımının səbəbləri

yazısı səh.8-də

### "Kiçik torpağa böyük qayıdış" - müxalifət Cocuq Mərcanlı qərarını dəstəklədi

yazısı səh.7-də

### Beynəlxalq təşkilatın demokratiya hesabatına Bakıdan fərqli reaksiyalar

yazısı səh.9-da

### Dollardan manata daha bir "kəllə"...

yazısı səh.12-də

### Avropa İttifaqı ilə rəsmi Bakı ortaq komissiya qurur - kimlər var...

yazısı səh.9-da

### Apelyasiya Məhkəməsi 5 məcburi köçkünü həbsdə saxlayıb

yazısı səh.3-də

### Beynəlxalq Bankı talayan keçmiş oliqarx məhkəmə qarşısında

yazısı səh.13-də

### Yastıq altında kimin nə qədər pulu qalıb?

yazısı səh.6-da

### Qarabağda müharibə xəbərdarlıqları artır

yazısı səh.11-də

# BAKIDA PSİXOLOQUN MÜƏMMALI ÖLÜMÜ - QƏTL, YOXSA İNTİHAR...

Tanınmış psixoloq Dəyanət Rzayevin ölümü ətrafında mübahisələr başlayıb; onun kəmərlə özünü asması bəziləri tərəfindən olaya başqa rəng verilməsinə səbəb olub; psixoterapevtin son vaxtlar dərin depressiya keçirdiyi deyilir




yazısı səh.5-də

# Şeyx məscidlərə nəzarəti gücləndirir: yeni "Vahid xütbələr" paylanacaq

QMİ-nin vahid xütbə məsələsində təşəbbüs irəli sürməsi son zamanlarda dini idarəni sıxışdırmağa yönəlik fəaliyyətə cavab hesab oluna bilər yazısı səh.6-da



*Hadı Rəcəbli:*

### "Məcburi köçkünlər "plitka"nı yandırıb, pəncərəni isə açıq qoyurdular"

yazısı səh.3-də



*Adil Əliyev:*

### "Karlovı Varıda evlər Sulutəpədəki evlərdən ucuzdur"

yazısı səh.4-də



### Eldar Mahmudovun həbsdəki generalının Məhəmməd Füzuli sevgisi - ilginc faktlar

yazısı səh.10-da



# Böyük müəllimin 75 yaşı - Cahangir Məmmədlinin yubileyinə

**Bu gün Azərbaycan jurnalistlərinin böyük müəllimi, bütün həyatını sözə və mətbuata həsr etmiş professor Cahangir Məmmədlinin ad günüdür. Onun 75 yaşı tamam olur.**

**Məmmədli Cahangir Əbdüləli oğlu 1942-ci ildə Ağdam rayonunun Novruzlu kəndində anadan olub.**

**1968-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Həmin ildən adıçəkilən fakültədə müəllimlik fəaliyyətinə başlayıb.**

**Uzun illər Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri vəzifəsində çalışıb. Hazırda BDU jurnalistika fakültəsinin dekani vəzifəsində çalışır. Filologiya elmləri doktoru, professordur.**

**İndiyədək 1000 - dən çox elmi, publisistik yazısı dərc olunub. Ədəbi tənqidə və jurnalistikaya dair 7 kitabın müəllifidir.**

**2004-cü ildə "İlin müəllimi" nominasiyasının qalibi olub. Bundan əlavə, jurnalistika sahəsində bir neçə nüfuzlu mükafatın sahibidir. Prezident təqaüdçüsüdür.**

**2005-ci ildən İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının sədridir.**

**C.Məmmədli 2003-2005-ci illər arasında Azərbaycan Mətbuat Şurası sədrinin müavini olub.**

**Lakin onun vəzifə və titullarının üstündə olan əsas titulu müəllimliyidir. Azərbaycanın müasir jurnalistikasında öz yazıları, islahatçı təklif və layihələri ilə bərabər, bu müqəddəs peşə üçün çoxsaylı və dəyərli kadrlar yetişdirilməsində böyük rol oynayıb. Azərbaycan jurnalistikasının bir çox isimləri auditoriyalarda ilk peşə biliklərini məhz Cahangir müəllimdən alıblar.**

**Cahangir Məmmədli həm də etibarlı dostdur. Uzun illərdir ki, milli azadlıq hərəkatının şinelindən çıxan "Yeni Müsavat" qəzeti və bu qəzetə aid saytlarla əməkdaşlıq və dostluq edir. Heç bir siyasi düşərgəyə mənsub olmasa da, ən kritik anlarda Azərbaycanın son 24 ildəki iqtidarını dəstəkləsə də, kəskin müxalif mövqedə olan zamanlarda belə hər zaman "Yeni Müsavat" qəzetinə xüsusi ehtiramı, bir sıra hallarda isə dəstəyi ilə fərqlənib. O, iki dəfə həbsxana həyatı yaşamağa məcbur olan «Yeni Müsavat»Media Qrupunun rəhbəri Rauf Arifoğlunu hər dəfə açıq şəkildə dəstəkləməkdən, barəsində pozitiv açıqlamalar verməkdən çəkinməyib. Cahangir Məmmədli bütün zamanlarda və bütün auditoriyalarda Azərbaycan mətbuat tarixinin ayrılmaz və danılmaz parçası olan "Yeni Müsavat" qəzeti haqqında xüsusi ehtiram və rəğbətlə danışıb. Bu da müəllim, vətəndaş və ziyalı kimi onun içərisində olan ədalət tərəzisinin göstəricisidir.**

**Cahangir Məmmədli bütün həyatını Azərbaycan jurnalistikasına və mətbu sözə həsr etmiş dəyərli ziyalımızdır. Bu cür insanların özləri bir milli dəyərdir.**

**«Yeni Müsavat» Media Qrupunun kollektivi bu münasibətlə hörmətli Cahangir müəllimi ürəkdən təbrik edir. Ona uzun və sağlıqlı ömür, yaradıcılıq fəaliyyətində daha yüksək uğurlar arzu edir.**

# Ukrayna defolta hazırlaşır



**Londonn Yüksək Məhkəməsi Ukraynanın Rusiya qarşısındakı 3 milyard dollar borcuna dair iddiaya baxır. Fins.az xəbər verir ki, kreditin taleyi Pasxaya qədər bəlli olacaq. Ekspertlər hesab edir ki, ən yaxşı halda Kiyev maliyyə yardımı xahişi ilə Qərbə müraciət edəcək. Ən pis ssenaridə defolt elan edəcək.**

Xatırladaq ki, 2015-ci ildə Kiyev 3 milyard dollar borcu ilə bağlı defolt elan etmişdi. Borca gəlincə, məbləğ Ukraynaya Viktor Yanukoviçin hakimiyyəti dövründə verilib. Kreditin ilkin məbləğinin 15 milyard dollar olması nəzərdə tutulurdu. Sonradan Moskva fikrini dəyişdi və Yanukoviçə 3 milyard dollar verdi. Ukraynanın borca qarşı defolt elan etməsindən sonra Rusiya London Yüksək Məhkəməsinə müraciət etdi. Artıq işlə bağlı məhkəmədəki dinləmələr başa çatıb. Onu da bildirək ki, Pasxa bu il aprelin 16-na təsadüf edəcək.

# Merkel fevralın 2-də Türkiyəyə səfər edəcək

**Almaniya kansleri Angela Merkel bu il fevralın 2-də Türkiyəyə səfər edəcək. Bu barədə "Ulusal kanal" məlumat yayıb.**

Onun Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, baş nazir Binəli Yıldırımla görüşəcəyi gözlənilir.

Angela Merkelin Türkiyənin İncirlik hərbi bazasındakı almaniyalı hərbçilərə baş çəkəcəyi də ehtimal edilir.





# Məmmədyarov İbrahim Rəhimpurla görüşüb

**Xarici işlər naziri Elmar Məmmədyarov İranın xarici işlər nazirinin müavini İbrahim Rəhimpuru qəbul edib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Azərbaycan və İran arasında münasibətlərin hazırkı səviyyəsi məmnunluqla qeyd olunub. Ölkələ rəhbərlərinin iradəsinə uyğun olaraq, əməkdaşlığın bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

E.Məmmədyarov bildirib ki, dövlət başçıları səviyyəsində keçirilən görüşlər, yüksək səviyyəli qarşılıqlı səfərlər, hökumətlərarası birgə komissiyanın fəaliyyəti, insanlararası təmaslar Azərbaycan və İran arasında əməkdaşlığın hərtərəfli inkişafında mühüm rol oynayır.

İranın xarici işlər nazirinin müavini İbrahim Rəhimpur 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamını yüksək qiymətləndirib və bunun müdrik bir qərar olduğunu bildirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Bakıda qadınları şantaj edərək pul alan dəstə üzvləri saxlanılıb

**Bakıda qadınları şantaj edərək onlardan pul alan dəstə üzvləri saxlanılıb.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 21-də Bakı şəhər sakinləri olan 2 nəfər qadın barədə rüsvayedici məlumatlar yayacaqları ilə hədələyib onlardan 1000 manat pul almaqda şübhəli bilinən paytaxt sakinləri Ceyhun Həmidov, Ədil Maqsudov, Comərd Həmzəyev, Bəxtiyar Ağayev və qardaşı Tural tutulublar.

Faktla əlaqədar cinayət işi başlanılıb.



# "Nar" yüksəksürətli 3G və 4G şəbəkəsini genişləndirməyə davam edir

**"Nar" abunəçilərin rahat və kəsintisiz rabitə və internet xidmətlərindən yararlanması məqsədilə yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirir. Abunəçilərin artmaqda olan internetdən istifadə tələblərinin qarşılanması üçün ölkə ərazisində 2272 sayda 3G və 614 ədəd 4G (LTE) baza stansiyası quraşdırılmışdır. Beləliklə, "Nar" 5916 ədəd baza stansiyası ilə öz istifadəçilərinə ölkədəki ən böyük mobil rabitə şəbəkələrindən birini təqdim edir.**

**Bundan əlavə, "Nar" operatorunun gücləndirilmiş və genişləndirilmiş 4G (LTE) şəbəkəsinin istifadəçilərinin sayı dinamik şəkildə artmaqda davam edir. Hazırda "Nar" LTE şəbəkəsindən faydalanmış istifadəçilərin ümumi sayı 120 000-dən çoxdur.**

**"Nar" öz genişləndirilmiş şəbəkəsi ilə hər bir abunəçinin tələblərinə uyğun olan müxtəlif tariflər və internet paketləri təklif edir. Abunəçilər sərfəli qiymətlərlə daha çox çeşidli mobil rabitə və internet xidmətlərindən istifadə edə bilirlər. Mobil operator tamamilə yeni "3-ü 1-də aylıq" tarifini bir müddət öncə təqdim etmişdir. Bu tarifə qoşulan istifadəçilər elə həmin andan etibarən ölkədaxili bütün istiqamətlərə 300 dəqiqə, 300 SMS və 900 MB internet trafiki əldə edirlər.**

**"3-ü 1-də aylıq" tarifi və mobil operatorun internet paketləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

# Qarabağ Azadlıq Təşkilatı piket keçirəcək

**Qarabağ Azadlıq Təşkilatı (QAT) piket keçirəcək. Bununla bağlı təşkilatın Ağsu şöbəsi rayon rəhbərliyinə müraciət göndərib. QAT-dan musavat.com-a verilən məlumata görə, aksiyanın keçirilməsində məqsəd QAT üzvünün əsassız olaraq işdən azad edilməsidir. "Rayon rəhbərliyinə göndərilən müraciətdə göstərilir ki, təşkilatın üzvü Xaləddin Həmidov heç bir əsas gətirilmədən Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yerli şöbəsində çalışdığı fəhlə işindən azad edilib.**

Qurumun müdiri Vasif Fərəcov onu təhqir edib, özünü çox kobud aparıb. Yerli idarə müdirlərinin bu cür hərəkətləri həm insanları ağır vəziyyətə salır, həm də ciddi narazılıqlar yaradır",- deyə QAT-dan bildirilib. Aksiya fevralın 1-də Ağsu rayonu telekommunikasiya qovşağının qarşısında keçiriləcək.

# Gəncə sakini ağrıkəsici dərmandan şoka düşərək ölüb

**Gəncə şəhərində dərmandan ölüm hadisəsi baş verib. Şəhərin Totanlı küçəsində yaşayan, 1949-cu il təvəllüdlü Xanlar Kərimov səhhəti ilə bağlı ağrıkəsici dərman qəbul edib, bundan sonra onun halı pisləşib. (APA)**

Yaxınları dərhal onu xəstəxanaya çatdırsalar da, X.Kərimov orada vəfat edib.

Onun astma xəstəliyindən əziyyət çəkdiyi, ağrıkəsicinin şok yaradaraq ölümə səbəb olduğu bildirilib.

Faktla bağlı araşdırma aparılır.

# DYP əməkdaşı ilə bağlı videoya açıqlama gətirdi

**Respublika Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) Masallı Rayon Yol Polisi şöbəsinin əməkdaşı, polis kapitanı Şəmşir Kərimov barəsində yayılan videogörüntüyə münasibət bildirib.**

BDYPİ-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev "Trend"ə açıqlamasında bildirib ki, məsələ ilə bağlı araşdırma aparılıb və faktlar təsdiqini tapmayıb:

"Bu, ötən ilin noyabr ayında çəkilmiş videodur və həmin görüntü noyabr ayında yayılmışdı. Məsələ ilə bağlı araşdırma aparıldı və məlum oldu ki, Masallı rayon sakini Aydın İslamov sürücülük vəsiqəsi olmadan avtomobil idarə etdiyi üçün saxlanılıb və yol polisi əməkdaşları tərəfindən cərimələnib. Həmin şəxs də belə bir açıqlama verməklə yol polisindən qisas almaq istəyib. Məsələ ilə bağlı həmin şəxs yazılı izahat verərək səhvini boynuna alıb və yalan danışdığını etiraf edib. Videoda danışan Masallı rayon sakini bildirib ki, videonun yenidən yayılmasından xəbəri yoxdur".

Qeyd edək ki, Masallı rayon sakini A.İslamov Masallı rayon Yol Polisi şöbəsinin əməkdaşı Ş.Kərimov tərəfindən saxlanılaraq sənədlərinin alındığını, şəxsiyyət vəsiqəsinin yerə atılaraq tapdalandığını və onu təhqir edildiyini bildirən videogörüntü yayımlayıb.

# Bakıda 6 dərəcə isti olacaq

**Azərbaycanda sabaha olan hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, yanvarın 27-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi, havanın əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 1-3 , gündüz 4-7, Bakıda gecə 1-3, gündüz 4-6 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 760 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 80-90, gündüz 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında yanvarın 27-də şimal və qərb rayonlarından başlayaraq arabir yağış, sulu qar, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 3 şaxtadan 2 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti olacaq.

Tibbi-meteoroloji proqnoza gəlincə, yanvarın 27-də Abşeron yarımadasında gündüz güclü xəzri küləyi meteohəssas insanlar üçün əlverişsizdir.

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

**Prezident İlham Əliyevin fərmanı ilə məcburi köçkünlərə 36 manat vahid aylıq müavinətin təyin edilməsinə deputat Çingiz Qənizadənin mövqeyi digər deputat həmkarının narazılığına səbəb olub. Hüquqşünas fərmanın verilməsinə səbəb kimi, Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsini ("Qaçqınkom") göstərib.**

# "Qaçqınkom" iki deputatı üz-üzə qoydu

Deputat açıq şəkildə bildirib ki, "Qaçqınkom"da olan korrupsiya hallarının qarşısını almaq üçün belə bir fərman verilib. Onun fikirləri həmkarı, zəngilanlı deputat İmamverdi İsmayılovun etirazına səbəb olub. O, hüquqşünas barədə sərt danışaraq, bunları deyib: "Sadəcə, həmin vəsait onda dövlətin büdcəsindən müvafiq qurumlara ayrılıb, indi isə onun forması dəyişib. Müvafiq qurumlar əvəzinə vətəndaşın özünə verilir və onu xərcləmək istiqaməti də vətəndaşın öz seçimindən asılı olacaq. Sosial müdafiənin bu şəkildə təmin olunması ünvanlılıq prinsipinə də uyğundur.

Ancaq deputat Çingiz Qənizadə yenə də öz əvvəlki çıxışlarında olduğu kimi, ölkə prezidentinin bu sahədə verdiyi fərmanı öz düşüncə tərzinə uyğun olaraq, komitədə olmayan korrupsiya hallarının qarşısının alınması kimi izah edir.

Görünür, Çingiz Qənizadə özünəməxsus xüsusiyyətlərindən əl çəkmək istəmir. Hesablama Palatası tərəfindən komitədə aparılan yoxlamalarda hər hansı bir qanun pozuntusu aşkar olunmayıb. Deputat Qənizadəyə tövsiyə edərdim ki, yaxşı olardı ki, o öz seçildiyi rayonun seçicilərinin problemləri ilə məşğul olsun. Bu cür fikirlər səsləndirməklə ölkəmizdə olan məcburi köçkünlər arasında çaşqınlıq yaratmaq və onlar üçün atılmış mühüm addımlara kölgə salmaq kimi əməllərindən əl çəksin".



**İmamverdi İsmayılov:** "Hesablama Palatası tərəfindən "Qaçqınkom"da hər hansı bir qanun pozuntusu aşkar olunmayıb"



**Çingiz Qənizadə:** "Onun dediyi fikirlər ayrı-ayrı şəxslərə xidmət edir"

**Ç.Qənizadənin həmkarına cavabı gecikməyib. Ünvanına səslənən tənqidlərə cavab olaraq modern.az saytına danışan deputat həmkarının çıxışından təəssüfləndiyini deyib:** "Həmkarım İmamverdi İsmayılovun barəmdə etdiyi qərəzli çıxışdan təəssüflənirəm. Onunla bir məqsədə xidmət etdiyimizi düşünürdüm. Milli Məclisdə qaçqın və məcburi köçkünlərlə bağlı qaldırdığım məsələlər deputat həmkarlarının bir hissəsinin də dəstəyini qazanmışdı. Zaman mənim haqlı olduğumu sübut etdi. Cənab prezidentin son fərmanı qaldırdığım məsələlərə də toxunur. Mən məsələ qaldırmışdım ki, qaçqın və məcburi köçkünlərə ayrılan müavinətlər onların özlərinə verilsin və ödəmələr də onlar tərəfindən həyata keçirilsin. Belə olduqda, büdcə vəsaitinin mənimsənilməsi hallarının qarşısı alınır, dövlət tərəfindən ayrılan ünvanlı vəsaitlər sahiblərinə çatdırılır".

**Çingiz Qənizadə İmamverdi İsmayılova Hesablama Palatasının saytına daxil olaraq "Qaçqınkom"la bağlı sənədləri oxumağı tövsiyə edib. O həmin sənədlərin tapılmasında həmkarına yardım etməyə hazır olduğunu da vurğulayıb:** "İmamverdi İsmayılov qeyd edir ki, Hesablama Palatası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində heç bir neqativ hal aşkar etməyib. Mən fikirlərimdə hüquqşünas olaraq yalnız faktlara söykənmişəm. Həmkarıma tövsiyə edərdim ki, Hesablama Palatasının saytına daxil olmaqla, son illərdə komitədə aparılmış yoxlamalar və büdcə vəsaitinin mənimsənilməsi ilə bağlı rəsmi açıqlamaları oradan oxusun. Ehtiyac varsa, ona bu qərarları tapmaqda kömək edə bilərəm. Bir sözlə, mənim qaldırdığım məsələlər dövlətə xidmətdir, onun mənim barədə dediyi fikirlər isə ayrı-ayrı şəxslərə xidmət edir".

❑ **Cavanşir ABBASLI**

## Apelyasiya Məhkəməsi 5 məcburi köçkünü həbsdə saxlayıb

### Biləsuvardakı insidentə görə tutulanların şikayəti təmin olunmayıb; iş Avropa Məhkəməsinə qədər uzana bilər



**Biləsuvarda məskunlaşan cəbrayıllı məcburi köçkünlərin elektrik enerjisinin kəsilməsi ilə bağlı keçirdikləri aksiyadan bir ay ötdü. Qəsəbədəki problemlər tam aradan qalxsa da, aksiya ilə bağlı həbs edilən və barələrində 3 aylıq həbs-qətimkan tədbiri seçilən 5 nəfər- Cəlal Quliyev, Zaur Feyruzlu, Gülağa Alməmmədov, Ülvi Quliyev və İlkin İsgəndərov məhbəsdədirlər.**

Saxlanılan şəxslər barəsindəki məhkəmə qərarından apelyasiya şikayəti verilsə də, instansiya qurumu ilk qərarı qüvvədə saxlayıb. İndi isə Ali Məhkəməyə müraciət olunacaq. Bu məhkəmə qurumu da qərarı dəyişməsə, Avropa Məhkəməsinə müraciət olunacaq.

Bu barədə "Yeni Müsavat"a cəbrayıllı məcburi köçkün, keçmiş vicdan məhbusu Məhəmməd Məcidli məlumat verdi: "Verilən şikayətlərin heç biri indiyə qədər təmin olunmayıb. Onların "ev dustaqlığı"na buraxılmaları barədə Cəbrayıl Rayon Məhkəməsində iddia ərizəsi qaldırılsa da, bu da təmin olunmadı. Növbəti mərhələdə Ali Məhkəməyə, arxasınca da Avropa Məhkəməsinə müraciət barədə fikirləşirik. Həbs edilənlərin ailələri hər gün mənimlə əlaqə saxlayırlar. Hazırda hər şey qaydasındadır. Rayon rəhbərliyi bu şəxslərin ailələri ilə əlaqə saxlamır. Təcridxanada da ümumi vəziyyətləri normaldır. Artıq qəbul ediblər ki, siyasi sifarişlə həbs ediliblər. Ona kökləniblər ki, Cəbrayıl məhkəməsinin onlara hökm oxuması qaçılmazdır. Həftədə bir dəfə telefon danışmaq hüquqları var və bundan istifadə edib, ailələri ilə danışırlar. Onların hüquqları ilə bağlı indiyə qədər komitə yaratmalı idik, sadəcə, ayın 14-də hamının toplanması mümkün olmadı. Amma tədbirimizi keçirdik. Qarşıdakı günlərdə komitəni elan edəcəyik. Biz istəyirik ki, həbs edilən hər kəsin ailəsi iştirak etsin. Qanunla onlara ailələri ilə görüş həbsdən bir ay sonra verilir. İndi sənədləri hazırlayıb göndərəcəyik. Cəlalın yalnız vəkili var, Elçin Sadıqovdur. Elçin bəyin digərlərinin də vəkili olmağına qanun icazə vermir. Ona görə dövlət tərəfindən tutulmuş vəkillər guya onların hüquqlarını qoruyurlar. İndiyə qədər onların əleyhinə fəaliyyət göstəriblər. Növbəti mərhələlərdə yeni vəkillər qoşulacaq. Çox güman ki, Fariz Namazlı vəkil kimi işə qoşulacaq".

❑ **Cavanşir ABBASLI**

# "Məcburi köçkünlər işıq spirallarından istifadə edir, pəncərəni isə açıq qoyurdular"

## Hadı Rəcəbli: "Belə adamlar bu gün çoxdur"

**"Biz məcburi köçkünlərin yaşadıqları evlərə gedirdik. Onlar işıq spirallarından istifadə edirdilər. Sonra isə pəncərəni açıq qoyurdular".**

Modern.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında həmin komitənin sədri **Hadı Rəcəbli** ölkə başçısının məcburi köçkünlərlə bağlı verdiyi sərəncama münasibət bildirərkən deyib. Hadı Rəcəbli bildirib ki, bu sərəncam israfçılığın qismən də olsa qarşısını ala bilər: "Bugünlərdə vəzifə tutan adamlardan biri ilə söhbət etmişəm. Dedi ki, vəzifəyə əmri alan gün ərizə yazaraq, ona verilən yardımdan imtina edib. Düşünüb ki, işdə yüksək maaş alacaq. Onun buna mənəvi cəhətdən haqqı yoxdur. Belə adamlar bu gün çoxdur".

**Komitə sədri bildirib ki, bu sənəd bəzi neqativ halların qarşısını almağa xidmət edəcək, həm də ünvanlılığı təmin edəcək:** "Bundan əvvəl vəsait ümumilikdə işıq, qaz idarələrinə ayrılırdı. Bu məsələyə diqqət yetirmək çətin olurdu. Orada da problemlər olurdu. 20 manat yeməkpulu, 15 manat isə enerji resursları ilə bağlı vəsait idi. İndi 36 manat adambaşına nəzərdə tutulub. Bu rəqəmin özü də məqbuldur. Bu, eyni zamanda qənaətcilliyə həvəsləndirəcək". Komitə sədri həmçinin bildirib ki, məcburi köçkünlərlə bağlı Nazirlər Kabinetinin verdiyi qərar bu sahədəki neqativ halları aradan qaldıracaq, eləcə də ünvanlılığı təmin edəcək.

**Hadı Rəcəbli deyib ki, məcburi köçkünlərin doğma yurdlarına qayıtması ilə bağlı "Repatriasiya haqqında" qanun layihəsi üzərində bir daha işlənməlidir:** "Dünyanın bir çox ölkələrinin sənədlərini toplamışıq. Cocuq Mərcanlı ilə bağlı prezidentin sərəncamı həmin layihənin ilkin sorağıdır. Yəni artıq həmin qanun layihəsini hazırlaya bilərik. Ölkə başçımız hər zaman məcburi köçkünlərə və qaçqınlara diqqət göstərir".

Komitə sədri onu da deyib ki, Azərbaycanda pensiya islahatlarını nəzərdə tutan "Əmək pensiyası haqqında" Qanuna əlavə və dəyişikliklər layihəsinin Milli Məclisin yaz sessiyasının fevralın 14-də keçiriləcək iclasında müzakirəyə çıxarılması nəzərdə tutulub.



O bildirib ki, layihə yanvarın 31-də bununla bağlı yaradılan işçi qrupunun genişləndirilmiş tərkibdə iclasında, fevralın 3-də isə Əmək və sosial siyasət komitəsinin iclasında müzakirəyə çıxarılacaq.

Komitə sədri qanun layihəsinin prezidentin imzası ilə Milli Məclisə daxil olduğunu, bununla yanaşı, müzakirələr zamanı deputatların da təkliflərinin nəzərə alınacağını qeyd edib.

Yeni MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017



# Nursultan nədən neo-sultan olmadı?

Xalid KAZIMLI

**Qazaxıstan prezidenti Nursultan Nazarbayev atdığı son addımla nəinki öz ölkəsinin vətəndaşlarını, eləcə də region və dünya ictimaiyyətini təəccübləndirdi.**

Ən əlamətdarı odur ki, bu hadisə bir neçə ildən bəri dünyada yenidən baş qaldırmış avtoritarlaşma meyllərinin şiddətlənməsi fonunda baş verir.

ABŞ-da sərt xətt tərəfdarı olan Donald Trampın hakimiyyətə gəldiyi, Rusiyada Putin avtoritarizminin gücləndiyi, Türkiyədə prezidentə hüdudsuz səlahiyyətlər verilməsinə dair referendumun keçirilməsinə hazırlıq getdiyi bir dönəmdə 1984-cü ildən baş nazir olaraq, 1989-cu ildən isə faktiki dövlət rəhbəri (kompartiyanın birinci katibi) sifətində Qazaxıstanı idarə edən adamın birdən-birə öz səlahiyyətlərindən imtina etməsi, onları parlamentə və digər hakimiyyət qollarına həvalə etmək təşəbbüsü göstərməsi özlüyündə fenomenal hadisədir.

Bunu Nazarbayevdən heç kəs gözləmirdi, ummurdu. Hamı onu postsovet məkanı üçün norma olan avtoritar rejim sahiblərindən biri kimi görürüdü. Hətta qazax xalqı da qismətlərinə düşən bu rəhbərin ömürlük prezident olması fikri ilə barışmışdı.

Söz yox, Nazarbayev ağıllı adamdır, bir çox başqa diktatorlardan fərqli olaraq bilir ki, özbək həmkarı, həmyaşıdı İslam Kərimova qalmayan dünya ona da qalmayacaq, ancaq o da respublika quruluşunda qanunsuz monarxiya yaratmış digər diktatorlar kimi hakimiyyəti öz varisinə ötürə, daha dəqiqi, sülalə hakimiyyətinin rəvan və ağrısız ötürülməsi üçün tədbirlər görə bilərdi.

Düzdür, bu imkan hələ qaçırılmayıb, ancaq hiss olunur ki, Nazarbayev öz səlahiyyətlərini məhdudlaşdırmaq təşəbbüsü göstərərkən heç də qızı Dariqa Nazarbayevanı hakimiyyətə gətirəcək yolu hamarlamayıb.

Başqa ölkələrdə tam tərsini edirlər, öncədən elə qanunvericilik aktları qəbul olunur ki, ortada siyasi (və ya bioloji) varisin hakimiyyətə gəlişinə heç bir maneə qalmır.

Əgər Nazarbayevin hakimiyyəti özündən sonra qızı Dariqa Nazarbayevaya ötürmək fikri varsa və o, bu niyyətində ciddidirsə, prinsipcə, son addımı atmamalıydı.

Bununla belə, güman etmək olar ki, qoca Elbaşı bu fikirdədir, amma Dariqanın hakimiyyətə gəlişinin demokratik əsaslarla, xalqın səsiylə baş tutmasını istəyir. O, özünün də, qızının da xalq arasında kifayət qədər nüfuza malik olduğunu bilməmiş deyil.

Ümumiyyətlə, Qazaxıstan prezidenti MDB məkanındakı avtoritar həmkarlarından xeyli fərqlənir. Onun ölkəsində də bir partiyanın hüdudsuz hakimiyyəti mövcuddur, ancaq iqtisadi-siyasi azadlıqlar digər postsovet məkanı ölkələrində olduğundan daha çoxdur.

Bu, özünü xüsusilə də iqtisadi sferada göstərir. Nazarbayev ölkəyə xarici investisiya axınını təmin etmək üçün lazım olan bütün şəraiti yaradıb. Yerli sahibkarların qanunsuz yoxlamalar, məmur reketliyi kimi dərdləri yoxdur. Başqa sözlə, bu ölkədə pul qazanan iş adamlarının dövlət strukturları tərəfindən girov götürülməsi, böyük məbləğdə xərac müqabilində azadlığa buraxılması, aylıq ödənişə məcbur edilməsi halları yoxdur.

Nazarbayev üçün daha bir üstün məziyyət kimi onun təhsilə xüsusi önəm verməsi göstərilir. Postsovet ölkələri içində xarici ölkələrdə dövlət hesabına ən çox tələbə oxutduran ölkələrdən biri də Qazaxıstandır. Bu cür tələbələrin sayı neftin qiymətinin düşməsiylə başlayan iqtisadi böhran zamanında da azalmayıb.

Bu, ondan xəbər verir ki, Nazarbayev ölkəsinin gələcəyini irəllərdə dövlətə savadlı şəxslərin rəhbərlik etməsində görür. O, Qazaxıstanın 15-20 ilə Sinqapur səviyyəsinə çatmasını, çoxmillətli dövlət olan Qazaxıstanda etnik qazaxların təmərküzləşməsini planlaşdırdığını gizlətmir.

Ərazisinə görə dünyanın doqquzuncu böyük ölkəsi olan Qazaxıstanın tərəqqi üçün böyük potensialı var. Hazırda bu ölkənin qarşısındakı ən böyük maneə dövlətin avtoritar rejimlə idarə olunmasıdır. İndi əgər ölkə tədricən demokratik institutların bərqərar olunması yoluna keçirsə, keçəcəksə, demək, Qazaxıstan yalnız irəliyə gedəcək.

Başlığa verilmiş sualın cavabı isə budur: adam avtoritar lider olsa da, gələcəyi görür, ona görə neo-sultan olmadı.

# "Karlovı Varıda evlər Sulutəpədəki evlərdən ucuzdur"

## Çexiyanın məşhur kurort şəhərciyində evi olanlar kimlərdir?

**Çexiyanın məşhur kurort şəhərciyi Karlovı Varıdakı daşınmaz əmlakın az qala yarısı Rusiya, Azərbaycan, Ukrayna və Qazaxıstan vətəndaşlarına məxsusdur. Virtualaz.org xəbər verir ki, bu barədə "Açıq Rusiya" təşkilatının saytı yazıb.**

Mənbənin verdiyi məlumata görə, Boris Nemtsovun iştirakı ilə 2014-cü ildə yaradılmış "Bələdiyyə skaneri" korrupsiya əleyhinə könüllülər layihəsi məsələ ilə bağlı öz araşdırmasını aparıb.

Layihə iştirakçıları Çexiyanın daşınmaz əmlak və ticarət reyestrinin köməyi ilə şəhərdəki bütün ünvanları analiz ediblər. Nəticədə məlum olub ki, əmlakın təxminən 50%-i keçmiş SSRİ respublikaları olan ölkələrin - Rusiyanın, Ukraynanın, Azərbaycanın, Qazaxıstanın və Qırğızıstanın vətəndaşlarının payına düşür.

Tədqiqat zamanı bəlli olub ki, Karlovı Varıdakı elit daşınmaz əmlak sahibləri arasında Azərbaycanda tanınmış simalar da var. Belə ki, burada Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin, onun deputat qardaşı, Milli Məclisin üzvü Cavanşir Paşazadənin və polis generalı Sahib Mirzəyevin adları var.

Karlovı Varının mərkəzində Milli Məclisin daha bir deputatı - Adil Əliyevin də daşınmaz əmlakı mövcuddur.



Adil Əliyev

Araşdırmanın müəllifləri Rusiya, Azərbaycan, Qazaxıstan və digər ölkələrin vətəndaşlarına məxsus mənzil və villaların onlarla ünvanının qeyd olunduğu interaktiv xəritə də hazırlayıblar.

**Modern.az saytı adı Çexiyadakı mənzil sahibi olmaqda hallanan şəxslərlə əlaqə saxlamağa çalışıb. Milli Məclisin deputatı Cavanşir Paşazadə özü və qardaşı haqqında yayılan məlumata münasibət bildirib.**

"Allah köməkləri olsun ki, həmin yerdə mənim də adımı qeyd ediblər. Mən hara, Çexiyada mənzil almaq hara! Yalan xəbərdir. Qardaşım haqda yazılan da yalandır".

Digər deputat Adil Əliyevlə əlaqə saxlamağa çalışsaq da, telefon zəngləri cavabsız qaldı.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev Çexiyanın kurort şəhərciyi Karlovı Varıda ev alması ilə bağlı iddialara münasibət bildirib.

**A.Əliyev "Report"a açıqlamasında deyib ki, Karlovı Varıda evlər Bakının Sulutəpə qəsəbəsindəki evlərdən ucuzdur:** "Həmin şəhərdə evim var. Burada qeyri-adi nə var ki?! Orada evlər kifayət qədər ucuzdur. Hər kəs oradan ev ala bilər".

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Ehsan Zahidov müsavat.com-a göndərdiyi açıqlamada belə yazıb:** "DİN-in Daxili Təhqiqatlar İdarəsinin rəisi, polis general-mayoru Sahib Mirzəyevin Çexiyanın kurort şəhərciyi Karlovı Varıda ev alması barədə yayılan məlumatlar əsassızdır və həqiqəti əks etdirmir. Düzdür, qeyd olunan ünvandakı daşınmaz əmlak Sahib Mirzəyev ad-soyadlı bir azərbaycanlıya məxsusdur. Görünür, xəbəri hazırlayanlar da onun general Sahib Mirzəyev olduğunu zənn ediblər və nəticədə də anlaşılmazlıq yaranıb. Daha dəqiq olsun deyə, onu da bildirim ki, Çexiyadakı Koptova 1191/5, 360 01 Karlovy Vary ünvanında yerləşən həmin evin sahibi 1946-cı ildə (71 yaşlı) Bakı şəhərində anadan olmuş, 2001-ci ildən (16 il) Çexiyanın Karlovı Varı şəhərində daimi yaşayan Mirzəyev Sahib Güləli oğludur".

# Süni uşaq qidalarının reklamına qadağa qoyuldu

## **Pediatr:** "Süni qidanin keyfiyyəti barədə ancaq həkim məlumat verməlidir"

**Prezident İlham Əliyev süni qidaların təbliğinə qadağa qoyulması ilə bağlı sərəncam imzalayıb. Sərəncama əsasən "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən dəyişikliklər edilib.**



Belə ki, qanunun 10.4-cü və 10.5-ci maddələri ləğv edilib, 10.3-cü maddəsində "ana südünə bərabər və ya ondan" sözləri "ana südü ilə eyni olması, onu tam əvəz edə bilməsi, körpələrin ana südü ilə qidalanması ilə müqayisədə süni qidalanmasının" sözləri ilə əvəz edilib. Həmçinin süni qida məhsullarının reklamının hamilə qadınlar və analar arasında, tibb müəssisələrində yayımlanması qadağan olunub. Qanuna əsasən yalnız sertifikatlaşdırılma barədə sənədləri olduqda, süni qida məhsulları reklam oluna bilər. Bu halda reklamda sertifikatın nömrəsi, verilmə tarixi və onu verən orqanın adı göstərilməlidir. Süni qida məhsullarının reklamının açıq məkanda yerləşdirilməsi də qadağan olunub. Eyni zamanda süni qida məhsullarının reklamında onlardan istifadənin yaş məhdudiyyətləri haqqında məlumat verilməli, mütəxəssislərlə məsləhətləşmənin zəruriliyi, ana südünün üstünlüyü qeyd olunmalıdır.

Qeyd edək ki, son vaxtlar ölkəmizdə körpələrini yalnız ana südü ilə qidalandıran analar azlıq təşkil etməyə başlayıb. Hansısa xəstəliyi, südü yetərincə olmayan analar istisna olmaqla, bəziləri ya işlə bağlı, bəziləri isə bədən quruluşlarına zərər gəlməsindən çəkindikləri üçün körpələrinə ana südü verməkdən imtina edir. Halbuki pediatrlar uşaqların iki yaşa qədər ana südü ilə qidalanmasının daha məsləhətli olduğunu dəfələrlə qeyd edirlər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 6 aya qədər uşağa heç bir əlavə qida, hətta maye belə qəbuledilməsi təyin olunmamalıdır. Çünki ana südündə hər şey yetərincə var. Yalnız 6 aydan sonra uşaq fiziki cəhətdən inkişaf edib çəkisi, boyu artdığını nəzərə alaraq əlavə qidalar məsləhət olunur. Bunlar da meyvə şirəsi, püresi, sıyıqlar, şorbalar ola bilər. Süni qidaların qiymətlərində gəldikdə isə araşdırmalar da göstərib ki, ölkəmizdə süni qidaların qiyməti digər qonşu ölkələrlə müqayisədə 25 faiz bahadır. Bir il ərzində isə süni qidalardan istifadənin ailənin büdcəsinə 1000-3000 manat arasında zərər vurduğu məlum olub.

Bəs yeni sərəncam bu problemlərin aradan qaldırılmasına təsir edə biləcəkmi?

**Mövzu ilə əlaqədar pediatr Vaqif Qarayev "Yeni Müsavat"a danışıb. Pediatr sərəncamdakı dəyişikliklərlə razı olduğunu deyib:** "Əgər sertifikatı olmayan qarışıq satılırsa, hökumət birinci növbədə onların ölkəyə girişinə qadağa qoymalıdır. Amma harda gəldi reklam olunması məsələsi ilə mən də razıyam, olmaz! Süni qidanin keyfiyyəti barədə ancaq həkim məlumat verməli, analar özbaşına istifadə etməməlidir. Yeni doğulan uşaq üçün yeganə qida ana südüdür. Həm tibbi, həm psixoloji baxımdan ana südünü heç nə əvəz edə bilməz! Amma bir məsələ var, əgər hər hansi obyektiv səbəbdən ana südü yoxdursa, uşaq mütləq bir qida almalidir. Bugünkü gün müxtəlif süni qida qarışıqları var və onlardan biri təyin oluna bilər. Amma bu qarışığı vəziyyəti qiymətləndirdikdən sonra ancaq həkim təyin edə bilər. Bizdə necə olur? Hələ doğum evində bəzi həkimlər ana südünün azlığını və ya yoxluğunu əsas gətirərək uşağı süni qidaya keçirirlər. Bu, yolverilməzdir. Çünki ilk günlər süd az ola bilər, amma uşaq mütləq döşlə əmizdirilməlidir ki, südün gəlməsinə stimul olsun. Əgər süd ümumiyyətlə olmasa, onda başqa variant qalmır, bu halda uşağa süni qarışıq verilə bilər. Bu məsələlər mütləq tənzimlənməlidir. Amma bütün hallarda həkimləri günahlandırmaq olmaz. Son vaxtlar uşağına ana südü verməkdən imtina edən analar az deyil. Həkim əgər həmin ananı inandıra bilmirsə, məcburdur ki, uşağa süni qarışıq təyin eləsin. Yəni hər uşağa mütləq individual yanaşılmalıdır. Amma birinci növbədə mütləq ana südünə üstünlük verilməlidir".

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

# Bakıda psixoloqun müəmmalı ölümü - qətl, yoxsa intihar...

**Tanınmış psixoloq Dəyanət Rzayevin ölümü ətrafında mübahisələr başlayıb; onun kəmərlə özünü asması bəziləri tərəfindən olaya başqa rəng verilməsinə səbəb olub; psixoterapevtin son vaxtlar dərin depressiya keçirdiyi deyilir**



**Xəbər verdiyimiz kimi, psixoterapevt Dəyanət Rzayev intihar edib. Onun cəsədi yanvarın 25-də axşam saatlarında Bakının Yasamal rayonunda (Murtuza Muxtarov 185 ünvanında) yerləşən evində aşkarlanıb.**

Ailə üzvlərinin bildirdiyinə görə, D.Rzayevin cəsədini anası Şərqiyyə Rzayeva aşkarlayıb. Belə ki, oğlunun davamlı telefon zənglərinə cavab verməməsindən narahat olan ana onun evinə gedib və meyitini aşkarlayıb. D.Rzayev özünü kəmərlə boğaraq intihar edib. O, intihardan öncə yazdığı məktubunda hadisədə heç kimin günahı olmadığını, bunun "özünün şəxsi qərarı olduğunu" qeyd edib.

Tək yaşadığı evdə intihar edən Dəyanət Rzayevin 2 azyaşlı övladı var və həyat yoldaşı ilə boşanıb. Mərhum dünən günorta saatlarında Biləcəri qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində mərhumun yaxınları, həmkarları və digər ictimaiyyət nümayəndələri iştirak ediblər. Musavat.com-un hadisə yerində olan əməkdaşının bildirdiyinə görə, yaxınları bu haqda heç nə danışmaq istəməyiblər.

### Gülər Əhmədova: "Dəyanətin ətrafındakı hər kəs günahkardır"

**Olay mediada yayılan andan etibarən sosial şəbəkədə də reaksiyalar səngiməditi. Reaksiya müəlliflərindən biri də sabiq deputat, eyni zamanda hazırda psixoloqluqla məşğul olan Gülər Əhmədova oldu. Gülər xanım D.Rzayevin dostu olaraq öncə bu hadisə barədə şərh yazanlara etiraz etdi:** "Yoldaşlar, ay yoldaşlar... Bu gün də hamınız psixoloq olmaq qərarına gəldiniz?? Yaxşı elədiniz... Olun. Amma unutmayın ki, heç kim heç nədən sığortalanmayıb. Gözləmədiyiniz vaxtda özünüz və ya yaxınınız intihar edər, yaxşı düşməz. Dəyanət Rzayev çox savadlı, fundamental təhsilli psixoloq idi. 6 aylıq kurs keçib, psixoloq olmamışdı. Ən gözəl sürücülər qəza törədir, ən yaxşı müəllimin uşağı avara ola bilir. Ən yaxşı kardioloji mərkəz açmış Neftçilər xəstəxanasının baş həkimi ürək qüsurundan həyatını dəyişdi, çünki əməliyyatdan çəkinirdi. Dəyanətin ətrafında olan hər kəs günahkardır, çünki hamı onu daha güclü hesab edirdi. Hamı düşünürdü ki, ona məsləhət vermək olmaz, dərdinə şərik lazım deyil. Çünki o, psixoloqdur. Hamının Axilles dabanı var. Hamının qırılma nöqtəsi var. Hamının sevgiyə, mərhəmətə ehtiyacı var. Əzizlərinizi bu gün sevin, bu gün zəng vurun, bu gün axtarın. Dəyanəti rahat buraxın. O artıq bizlik deyil, Yaradanının yanındadır. Allah ona rəhmət və mərhəmət etsin".

### Həyat yoldaşı "Xaricə getmək istəyirdi" deyir, Elmir Əkbər intihar versiyasını inkar edir

**Mərhumun həyat yoldaşı Nüşabə xanım qafqazinfo.az saytına açıqlamasında Rzayevin sıxıntılarının olduğunu bildirib:** "O qədər problemləri var idi ki, ölkədən qaçıb getmək istəyirdi. Son vaxtlar elə hey xaricə getmək istədiyini deyirdi".

**Tanınmış psixoloqun intihar hadisəsi cəmiyyətdə böyük rezonans doğurub. Çox adam psixoloqun intihar etməsini normal qəbul edə bilmir. Hətta ölüm hadisəsini müxtəlif formada şərh edənlər var. Tanınmış psixoterapevt Elmir Əkbər modern.az-a açıqlamasında deyib ki, bu hadisədə intihardan söhbət belə gedə bilməz:** "Birmənalı olaraq, burada heç bir intihardan söhbət gedə bilməz. Çünki Dəyanətin həyatının mənası var idi, nə üçün yaşadığını bilirdi. Yüz faiz əminəm ki, bu hadisədə özünəqəsddən söhbət gedə bilməz. Gah dedilər ki, özünü binadan atıb, gah da dedilər ki, özünü kəmərlə asıb. Belə təəssürat yaratdılar ki, ilk olaraq onun ölümü haqqında nə deməyin lazım olduğunu dəqiq bilmirdilər. Əvvəl dedilər ki, özünü atıb, sonra isə qeyd etdilər ki, yox, kəməri ilə özünü asıb. Dərindən analiz edən insanlar üçün bu versiyalar təbii ki, gülüncdür. Yaxşı ki, yazıq Dəyanətin üstünə benzin töküb yandırandan sonra "o özünü yandırdı deməyiblər".



**Psixoloq Elnur Rüstəmov isə fərqli düşünür:** "Dəyanət tez-tez stress keçirirdi. Özünə qapanıb, telefonu söndürüb, evdə oturseverdu. İşə 2 dəfə gedirdi, 5 dəfə getmirdi. Daha əvvəl də intihara cəhd etmişdi".

### Prokurorluq qətl versiyasını təkzib edir

Yanvarın 25-də paytaxtın Yasamal rayonu ərazisində Dəyanət Rzayevin yaşadığı mənzildə asılmış vəziyyətdə meyitinin aşkar olunması barədə daxil olmuş məlumat əsasında rayon prokurorluğunun və polis idarəsinin əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinin və meyitin müayinəsi aparılıb.

**Musavat.com xəbər verir ki, bu barədə Respublika Prokurorluğu mətbuat xidməti saytımızın sorğusuna hazırladığı cavabda bildirib. Cavabda eyni zamanda bildirilib:** "Meyitin xarici müayinəsi zamanı boynundakı stranqulyasiya şırımından başqa bədəni üzərində zorakılıq əlamətləri, hər hansı xəsarət izi aşkar edilməyib. Faktа görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanmış, D.Rzayevin ölümünün səbəbinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibbi ekspertizası təyin edilib. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir".

### Züleyxa Bayramova: "3 gün əvvəl dedi ki, elə ölmək istəyirəm ki..."

**Psixoloqun yaxınları isə onun ölümündən öncə belə bir istəkdə olması barədə eyham vurduğunu deyirlər. Bunu Dəyanət Rzayevin yaxın dostu, telejurnalist Zülfiyyə Bayramova musavat.com-a açıqlamasında bildirib. Müsahibimizin sözlərinə görə, hadisədən 3 gün əvvəl D.Rzayev ona zəng edib və israrla görüşmək istədiyini deyib:** "Bir xeyli söhbət etdi. Zarafatlaşdıq, danışdıq. Orda mənə zarafatyana dedi ki, elə ölmək istəyirəm. Bəlkə də axmağam. Onun qədər ağıllı ola bilmədim. Sözünü qəribçiliyə saldım. Zarafatla dedim ki, "nə ölmək-ölmək salmısan, kvartalın axırıdır". O məqamda gerçək fikrini tutsaydım, bəlkə də hər şey başqa cür olardı. Onun əynində qırmızı, mənim əynimdə sarı gödəkçə vardı. Hətta zarafatlaşdıq ki, dəli qırmızı, gic sarı. Əhvalı çox yaxşı görünürdü".

**Müsahibimiz xatırlatdı ki, mərhum onunla iki dəfə sağollaşıb. Öncə binanın içində qucaqlaşıblar, bir az aralanan kimi isə psixoloq ona "Zulya, sən kişi adamsan" deyib təkrar qucaqlayıb:** "Mən nə bilim ki, o, mənə vida edirdi? İndi o saniyələr yadıma düşəndə ikiqat əzab çəkirəm. O, mənimlə sağollaşmağa gəlmişdi".

**Z.Bayramova eyni zamanda dedi ki, D.Rzayevin hər hansı maddi problemləri olmayıb. Müsahibimizin sözlərinə görə, ona dərs demək üçün bir neçə yerdən təklif də gəlibmiş. Amma o, indiki durumundan və qazancından məmnun imiş:** "Onun mənəvi dəstəyə ehtiyacı vardı. Əsas problemi də mənəvi idi. Yorulmuşdu, dolmuşdu. O gündən sonra da ondan xəbər ala bilmədik. Ta ki, dünənə qədər".

### Orxan Nəcəfli: "Ən çox intihar edən peşə sahibləri həkimlərdi"

"Kim psixiatırdırsa, o demək deyil ki, heç vaxt psixi xəstəliyə tutulmayacaq. Həyat göstərir ki, insanların 1%-ində şizofreniya xəstəliyi var. Psixiatrların da 1%-i eyni xəstəlikdən əziyyət çəkir".

Bu sözləri psixoloq Dəyanət Rzayevin intihar etməsi ilə bağlı respublikanın baş psixiatrı, professor, Azərbaycan Psixoatriya Assosiasiyasının prezidenti Nadir İsmayılov lent.az-a açıqlamasında söyləyib.





**Ölkədə kifayət qədər səs-küyə səbəb olan bu intihar hadisəsini professor sıradan qarşılayır:** "Axı niyə ajitoj yaradırlar, başa düşmürəm. Psixoloq da bir insandır. İnsanın da depressiyaya düşmək ehtimalları var. Depressiya həddi ciddiləşəndə insanda intihara meylliliyik daha da artır. Yəqin ki, Dəyanət bəy də son zamanlar depressiya keçirirmiş, nəsə həyatı problemi olub. O, problemin həlli qarşısında aciz qalıb".

**Psixiatr Orxan Fərəcli isə "Yeni Müsavat"a açıqlamasında bildirib ki, həmkarının intiharı onun depressiv durumu ilə bağlı olub. Uzun müddət depressiyadan əziyyət çəkən D.Rzayevin halının bəzən yaxşılaşması, bəzənsə pisləşməsi müşahidə olunurmuş:** "Mənim onunla çox uzun müddət əlaqəm yox idi. Eşitdiyimə görə, ailəsində ayrılıq olmuşdu. Bəzən aylarla itirdi. Dostları, yaxınları ilə əlaqələrini kəsirdi. Onun intiharı bizim aramızda şok effekti yaratdı. Baxmayaraq ki, ən çox intihar edən məslək yiyələri məhz həkimlərdir. O statistikanın mənbəyini indi dəqiq deyə bilməyəcəm. Amma insan psixologiyası həssasdır. Bu cür nəticələr verə bilər. Bəzi insanlara qəribə təsir bağışlayır ki, nə əcəb Dəyanət Rzayev kömək istəməyib. Bu ölkədə 380 psixiatr və ondan iki dəfə artıq psixoloq var. Amma bu, bizim ölkədə bu peşənin sahibləri sırasında ilk intihar hadisəsidir. Məncə, burda məslək faktoru yox, fərdi keyfiyyətlər önəm daşıyır".

### Ölümündən öncə intihar barədə müsahibə verib: "İntiharın səbəbkarı monopolistlər, oliqarxlardır"

**"Yeni Müsavat" xatırladır ki, psixoloq bir müddət öncə "Kanal 13" televiziyasına intihardan çıxış yolu haqda danışıbmış. O bildirib ki, Azərbaycanda intiharları daha çox kişilər edir, bunun da səbəbi sosial qayğılardır. Eyni zamanda bakupost.az-a müsahibəsində isə insanların maddi vəziyyətinin aşağı olmasında məmurları ittiham edib:** "Yeni ailə qurmuş, yaxud azyaşlı uşaqları olan kişi bu bahaçılıqda gedib ac körpə uşağının gözünə baxa bilmir. 50 manat pensiya alan xəstə anası olan gənclər var, onlar nə etsinlər? Çıxış yolu kimi özlərini öldürməkdə görürlər. Mən deməzdim ki, bu, etirazdır. Bir tərəfdən etirazdır, həm də günahkarlıq hissidir. Öz valideyninin, uşağının qabağında günahkarlıq hissi... Bu da, bilirsiniz, nədən irəli gəlir? Həmin o korrupsionerlərin, oliqarxların, monopolistlərin milləti yeyib talamasından. İntiharların səbəbi onlardır. Pulları yatırırlar ya villalara, ya da xarici banklara. Zavod açmırlar, bir iş yeri yaratmırlar ki, camaat da özünə çörək pulu qazansın. Dövlətə də gəlir gətirsinlər. Əlləri də hər yerdən üzülən camaat çarə kimi ölümü seçir".



### İntihar edən psixoloqlar - hamısı ölmədən öncə məktub yazıb və depressiyadan əziyyət çəkib

Amma tarix bu günə qədər bir çox psixoloqun intihar faktı ilə tanış olub. Onlardan biri 2016-cı il aprelin 14-də baş verib. İstanbulda tanınmış psixoloq Tülay Gülən "Mədəniyyət evi"nin ikinci mərtəbəsindən özünü ataraq intihar edib. Bundan başqa, Türkiyənin Mersin vilayətində Ailə və Sosial Siyasətlər Nazirliyinin rayon müdirliyində psixoloq işləyən 45 yaşlı Hasan Cevdet evinin eyvanında özünü asaraq canına qəsd edib. Onun intihar səbəbləri bilinmir.

Xərçəng xəstəliyindən əziyyət çəkən rusiyalı professor Mixail Kondratyev də intihar edənlərdəndir. O, Moskva şəhər Psixologiya-Pedaqogika Universitetinin sosial psixologiya fakültəsinin 59 yaşlı dekanı olub. İntihardan əvvəl məktub yazan professor məktubunda ölümünə görə heç kimi günahlandırmamağı, xəstəliyi ilə apardığı mübarizədən yorulduğunu bildirib.

Yunus Emre Dövlət Xəstəxanasında psixiatr olaraq çalışan həkim Mustafa Ünalmış da ötən ilin yayında intihar edib. O, tapança ilə qarnına atəş açaraq intihar edib. Evində tapılan son məktubda isə aşağıdakıları yazıb: "Mənim ölümümə görə heç kim məsuliyyət daşımır".

❑ **Sevinc TELMANQIZI**
❑ **Fotolar: Məhəmməd Türkmən**

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

# Şeyx məscidlərə nəzarəti gücləndirir: yeni "Vahid xütbələr" paylanacaq

## QMİ-nin vahid xütbə məsələsində təşəbbüs irəli sürməsi son zamanlarda dini idarəni sıxışdırmağa yönəlik fəaliyyətə cavab da hesab oluna bilər

**Azərbaycanda yeni "Vahid xütbə" kitabı hazırlanır. "Report" agentliyinin məlumatına görə, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xütbə və moizələr şöbəsinin müdiri, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin baş müəllimi Aqil Şirinov deyib ki, kitab Şeyxülislamın göstərişi ilə hazırlanır, artıq kitab üzərində iş yekunlaşmaqdadır.**

Şöbə müdirinin sözlərinə görə, nəşrdə Azərbaycanda mövcud olan İslam məzhəbləri arasında heç bir ayrı-seçkiliyə yol vermədən, onların hamısını əhatə edən mövzular yer alacaq: "Kitabda Quran və hədislərdən, eyni zamanda təfsir kitablarından istifadə olunub. Orada hər həftə üçün bir xütbə verilib. Hər xütbə isə bir neçə səhifədən ibarətdir".

Qeyd edək ki, təxminən 4 il əvvəl də ölkədə vahid xütbə mətnləri yayılmışdı. O zaman da QMİ-nin məscidlərdə vahid xütbə mətnləri tövsiyə xarakterli idi, imam və axundların istifadəsi üçün bir sıra tövsiyə və istiqamətləri göstərirdi. Ancaq A.Şirinov deyib ki, bundan əvvəl mövcud olan vahid xütbə kitabında yalnız mövzu ilə əlaqədar ayə və hədislər verilib: "Yeni kitab isə tam xütbə formasına salınıb".

QMİ nümayəndəsi kitabın nəşr olunduqdan sonra məscidlərə paylanılacağını, axund və imamlar tərəfindən əyani vəsait kimi istifadə olunacağını bildirib. Yeri gəlmişkən, QMİ-dən tövsiyə etdilər ki, bu mövzuda A.Şirinovun açıqladığı məlumatlarla kifayətlənək. Əlavə açıqlama yoxdur.

Qeyd edək ki, 4 il əvvəl hazırlanan vahid xütbə mətnləri əlamətdar günlər və tarixi hadisələrlə əlaqədar verilən tövsiyə xarakterli xütbə və moizə mətnlərindən ibarət idi. Tövsiyə xarakterli xütbələrdə vətənpərvərlik, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi-mədəni irsimizə sədaqət, vəhdət və qardaşlıq, dinlər və məzhəblərarası münasibətlərdə tolerant yanaşma və bu kimi mühüm məqamlara xüsusi diqqət çəkilə bilər.



Bundan başqa, Rafiq Əliyevin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri kimi çalışdığı dövrdə Dövlət Komitəsi axund və imamlar üçün xütbə nümunələri hazırlamışdı. Ancaq o zaman DQİDK sədri ilə Şeyxülislam arasında münasibətlər xeyli soyuq idi və R.Əliyevin kitabı sadəcə tövsiyə xarakterli idi. O zaman və sonrakı illərdə kimsə bu tövsiyələrdən istifadə etmədi.

Daha sonra isə 2012-13-cü illərdə vahid xütbə mövzusu yenidən gündəmə gəldi və DQİDK və QMİ birgə vahid xütbə mətnləri hazırladılar. Ancaq görünür, artıq o kitab da şərtlərə cavab vermir. Beləliklə, artıq 3-cü və necə deyərlər, tam olaraq xütbə nümunələri hazırlanır. Əgər daha əvvəlkilər, sadəcə, tövsiyələr idisə, indi hazırlanan yeni kitabda imamlar üçün hazır xütbə mətnləri olacaq.

Onu da qeyd edək ki, bu məsələ əksər müsəlman ölkələrində, xüsusən də həssas şərtlərə malik dövlətlərdə çoxdan həllini tapıb. Məsələn, qonşu ölkələrdə, o cümlədən dünyəvi respublika olan Türkiyədə bütün məscidlər baş nazirə tabe olan Diyanət İşlər Başkanlığı tərəfindən idarə olunur, məscidlərin idarəçiliyi, imam və müəzzin təyinatı DİB tərəfindən aparılır. Eyni zamanda bayram və Cümə namazlarının xütbələri DİB-in hazırladığı vahid xütbə mətnlərinə əsasən deyilir. Yalnız cari mövzularda imamın gündəlik aktual məsələlərdən danışması mümkündür.

Qonşu İranda da vahid xütbə mətnləri olmasa da, İslam Respublikasında axund və imamlar bu standartları bilir və riayət edirlər. Ümumiyyətlə, müsəlman ölkələrində bir qayda olaraq məscidlər dövlətlərin bu və ya digər formada nəzarətində olur. Hökumət və ya onun nəzarətində olan dini qurumlar məscidləri və ümumilikdə dini fəaliyyəti yönəldir. Çünki əks təqdirdə, dini fəaliyyətlər nəzarətdən çıxır və tezliklə hakimiyyətlərə qarşı əsas müxalif gücə çevrilir. Unutmaq olmaz ki, müsəlman ölkələrində xalq kütlələrini səfərbər edən ən güclü amillərdən biri və ya *(bəzi ölkələrdə)* birincisi dindir. Bu səbəbdən də iqtidarlar - dünyəvi və ya dini olmasından asılı olmayaraq - dini fəaliyyətləri müxtəlif şəkillərdə nəzarət altında saxlamağa çalışırlar. Bunun bir çox modelləri var - hansı ki, hazırda bütün müsəlman aləmində ondan istifadə olunur.

Azərbaycan hökuməti də son illərdə, xüsusən də 2014-cü ildən sonra dini fəaliyyəti ciddi nəzarət altına almağa çalışır. DQİDK və Prezidentin millətlərarası, dini tolerantlıq və dini məsələlər üzrə dövlət müşavirliyi böyük ölçüdə dini təbliğat və maarifçilik fəaliyyətlərini nəzarətə götürüb. Ölkə ərazisində konfranslar, seminarlar keçirilir, radikalizmə və xurafata qarşı kompleks tədbirlər həyata keçirilir. İndi isə məlum olub ki, Qafqaz Müsəlmanları İdarəsi vahid xütbə nümunələri hazırlayır. Bununla məscidlərdə kənar söhbətlərin, dinlər və məzhəblərarası nifrətin yayılması, "siyasi söhbətlərin" qarşısının alınması məqsədi güdülür.

Yeri gəlmişkən, kitabın hazırlanması Aqil Şirinovun rəhbərlik etdiyi şöbədə həyata keçirilir. A.Şirinov QMİ-də azsaylı nüfuzlu və gənc ilahiyyatçılardan biridir. QMİ-nin vahid xütbə məsələsində təşəbbüs irəli sürməsi son zamanlarda dini idarəni sıxışdırmağa yönəlik fəaliyyətə cavab da hesab oluna bilər.

❑ Kənan RÖVŞƏNOĞLU

# Yastıq altında kimin nə qədər pulu qalıb?

## Ekspertlər son dövrlər pulu yastıq altında saxlayanların sayının çoxalmasının səbəbini izah edir

**"Vətəndaşlarımız pullarının 80 faizini dollara çevirib passiv vəziyyətdə seyflərdə saxlayırlar". SOCAR-ın prezidenti Rövnəq Abdullayev Azərbaycanda ilk dəfə buraxılan SOCAR istiqrazları, onların investorlar üçün yaratdığı gəlir imkanları və ilk faiz ödənişi ilə bağlı "Trend"in suallarını cavablandırarkən belə deyib.**



R.Abdullayev qeyd edib ki, bu pullar nə iqtisadiyyata, nə də öz sahiblərinə gəlir gətirir: "SOCAR istiqrazlarının buraxılması isə imkan verir ki, hazırda heç bir fayda verməyən bu pullar aktiv iqtisadiyyata cəlb olunsun". Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun prezidenti Sabit Bağırov isə APA-ya verdiyi müsahibədə yastıq altındakı vəsaitlərin yatırılması üçün SOCAR istiqrazlarının əlverişli seçim olduğunu bildirib: "SOCAR istiqrazlarını alan insanlar, fikrimcə, heç nə uduzmayıb, əksinə, qazanıb. Bizim vətəndaşlarımız, insanlarımız öz dollar ethiyatlarını ya banklarda saxlayırlar, ya da yastıq altında. Bank faizləri SOCAR istiqrazları ilə müqayisədə bir çox hallarda daha əlverişsizdir. Yastıq altında saxlanılan dollarların isə inflyasiyaya məruz qalma riski böyükdür. Biz dolların inflyasiya göstəricilərinə baxsaq, görərik ki, misal üçün, 2000-ci ildən indiyədək dollar təxminən 40% dəyərdən düşüb, yəni son 16 ildə dollar 40% dəyərini itirib. 2010-cu ildən bu yana illəri nəzərdən keçirsək, görərik ki, dolların orta illik inflyasiyası təqribən 2%-dir. Deməli, yastığın altında saxlanılan dollarlar hər il orta hesabla 2% dəyərsizləşir. Belə vəziyyətdə, pulu yastığın altında saxlamağın bir üstünlüyü varmı? Xeyr, yoxdur, harasa yatırmalısan. Yaxşı olar ki, əlbəttə, hansısa şirkətin qurulmasında istifadə edəsən, böyük şirkətlərin qiymətli kağızlarını alasan ki, qazanc əldə olunsun. Və bu qazanc istiqamətlərindən biri də məhz SOCAR kimi şirkətlərin istiqrazlarıdır".

**S.Bağırovun fikrincə, SOCAR istiqrazlarının əsas üstünlüyü yüksək likvidlikdir:** "Likvitlik o deməkdir ki, sən istədiyin anda bu kağızları təkrar bazara çıxara bilərsən, sata bilərsən və öz vəsaitini geri qaytara bilərsən. Bax, bu likvidlik məsələsi istiqrazlarda, demək olar ki, risksizdir. Yəni istənilən an istiqrazı qaytarıb, öz vəsaitini itirmədən ala bilərsən. Bax, əsas üstünlük bundadır, likvidlik".

Bəs görəsən, vətəndaşlarımızın yastıq altında nə qədər vəsaiti qalıb? Bu vəsaitlərin iqtisadiyyata cəlb edilməsi üçün nə kimi addımlar atılmalıdır?

**İqtisadçı ekspert, hüquqşünası Əkrəm Həsənov "Yeni Müsavat"a açıqlamasında əhali üçün əlverişli biznes imkanlarının yaradılmasını təklif etdi:** "İstiqrazlar yastıq altındakı pulların çox cüzi hissəsini iqtisadiyyata qaytardı. Əksər vəsait elə yastıq altında qalıb. Səbəb bellidir: əhalinin mütləq əksəriyyəti pulunu heç kəsə etibar etmir və bu, iqtisadiyyatımız üçün çox pisdir. Çünki pul dövr etməli, ölkəni daha da zənginləşdirməlidir. Prinsipcə, pulun 3 əsas yerləşdirmə üsulu var: birincisi, borc vermək, ikincisi, əmlak almaq, üçüncüsü isə hansısa biznesə sərmayə qoymaq. Birinci üsul hazırda problemlidir: əhali nə banklara, nə də digər borc alanlara etibar etmir. İkinci üsul nisbətən daha təhlükəsiz olsa da, sərfəli deyil. Belə ki, məsələn, daşınmaz əmlakın qiyməti düşür və hələ xeyli düşəcək də. Yalnız sahibkarlıq fəaliyyəti qalır. Hesab edirəm ki, dövlət əsas diqqəti bura yönəltməlidir. Sahibkarlıq üçün əlverişli və təhlükəsiz şərait yaradılsa, qanunvericilik təkmilləşdirilsə, qanunlar işləsə, məhkəmələr ədalətli olsa, pullar yastıq altından çıxacaq. Hətta kiçik vəsaitlər də birləşə bilər. Amma bunun üzərində ciddi işləmək lazımdır. Əhali görürsə ki, evini belə faktiki zorla əlindən alırlarsa, risk edib ehtiyat pulunu biznesə necə qoysun? Necə əmin olsun ki, sabah əlindən almayacaqlar?"

**İqtisadçı ekspert Qubad İbadoğlu isə "Yeni Müsavat"a açıqlamasına bildirdi ki, bu məsələdə əsas problem əhalinin banklara və digər qurumlara inamının itməsidir:** "Ötən ilin dekabrın 1-nə olan məlumata görə, dövriyyədə olan pul kütləsinin 70 faizi və ya 6 milyard 332,2 milyon manatı nağd şəkildədir. Banklardan kənarda olan pul kütləsinin məbləği isə 5 milyard 833,5 milyon manatdır. Bu o demək deyil ki, onlar hamısı yastıq altındadır. Amma son dövrlər gedən prosesə görə pulu yastıq altında saxlayanların sayı çoxalır. Çünki banklara inam itib. Onu qara bazarlar vasitəsilə dollara çevirib ölkədən pul çıxaranların sayı da durmadan artır. Əslində böyük pullar əvvəlcədən ölkədən çıxarılıb. SOCAR-ın istiqrazlarının əsas məqsədi də o pulları qaytarmaq idi. Amma ona nail ola bilmədi, çünki təklif etdiyi istiqrazları SOCAR-ın təsiri altında olan korporasiyalar almağa məcbur oldu. SOCAR hələ indiyə qədər açıqlamayıb ki, satdığı istiqrazların hansı hissəsini fiziki və hansı hissəsini hüquqi şəxslər alıb. Mən bilirəm ki, SOCAR-ın istiqrazlarının cüzi hissəsini fiziki şəxslər alıb. Bu isə o deməkdir ki, həmin vasitələrlə yastıq altında olan pulları dövriyyəyə cəlb etmək mümkün olmayacaq. Digər vasitələrə gəlincə, bu yalnız manatın məzənnəsində tarazlıq yaranında və bankların konsolidasiyası başa çatanda baş tutacaq. Bu isə hələ xeyli müddət tələb edir. Bu müddətdən sonra həmin pullar mənzil, mülk və sair əmlak bazarına qayıda bilər".

❑ Nərgiz LİFTİYEVA

# "Kiçik torpağa böyük qayıdış" - müxalifət Cocuq Mərcanlı qərarını dəstəklədi

**Prezident İlham Əliyev yanvarın 24-də "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.**



Sənəddə bildirilir ki, ötən ilin aprel ayında Azərbaycan ordusunun həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı nəticəsində erməni işğalından azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində insanların təhlükəsiz yaşaması mümkün olmuşdur. Bununla da, tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarətinə keçmiş həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin başlanmasına şərait yaranıb.

Sərəncama əsasən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat ayrılıb.

Sərəncamdan sonra Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) əməkdaşları ərazidə təmizlik, təhlükəsizlik və kəşfiyyat işlərinə başlayıb. Kəndin ərazisi mina və partlamamış silah sursatlardan təmizlənilir.

İşğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası və oraya qaçqınların qaytarılması ilə bağlı qərara müxalifət partiyaları da "Yeni Müsavat"a açıqlamalarında münasibət bildirib.



**İqbal Ağazadə:** "Əhalinin yaşayış yerinə qayıtması Ermənistana mesaj verilməsi baxımından müsbət addımdır"



**Əli Əliyev:** "Lavrovun bəyanatından sonra belə bir addımın atılması həm də hakimiyyətin iradə nümayişidir"



**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, Cocuq Mərcanlı barədə addım çox pozitiv addımdır:** "1993-cü ildə Cocuq Mərcanlı kəndi ermənilər tərəfindən işğal olunmuşdu. 1994-cü ildə Azərbaycan ordusunun Horadiz əməliyyatı nəticəsində Cocuq Mərcanlı azad olunmuşdu. Lakin Lələtəpə yüksəkliyinin ermənilərin işğalında olması Cocuq Mərcanlıda əhali üçün təhlükə yaradırdı. Keçən ilin aprelində yüksəkliyin azad edilməsi ilə Cocuq Mərcanlı da təhlükədən xilas oldu. İndi həmin kənddə bərpa-tikinti işlərinin aparılması və kənd sakinlərinin öz yurd-yuvalarına qaytarılması qərarı istənilən halda çox pozitivdir. İstər psixoloji cəhətdən, istər əhalinin yaşayış yerinə qayıtması və istifadə olunmayan torpaqlarımızın vətəndaşlarımızın istifadəsinə verilməsi, istərsə də Ermənistana mesaj verilməsi baxımından müsbət addımdır. Kaş indiyə qədər bütün torpaqlarımız işğaldan azad olunaydı və böyük qayıdış reallaşaydı. Böyük qayıdış o zaman olacaq ki, Şuşaya, Ağdama və digər işğaldakı rayonlarımıza qayıdış başlayacaq. Azərbaycanda hamı şair təbiətlidir. Ona görə də bu məsələlərə bir az şairanə yanaşırlar. Belə yanaşılmamalıdır. Addım müsbət addımdır, amma şairanə yanaşmalar lazım deyil".

**VİP sədri Əli Əliyev bildirdi ki, Cocuq Mərcanlının bərpası ilə bağlı verilən qərar düzgün qərardır:** "Bu qərar həm də torpaq məsələsində güzəştsiz Azərbaycan mövqeyinin nümayişi üçün də mühümdür. Nə qədər ki, Cəbrayıl rayonu tam olaraq azad edilməyib, Qarabağ məsələsi həllini tapmayıb, geniş xərc çəkilişinin tərəfdarı deyiləm. Lakin iradə nümayişi zəruridir. Lavrovun bəyanatından sonra belə bir addımın atılması həm də hakimiyyətin iradə nümayişi aksiyasıdır. Hərçənd ki, prezident Əliyevin Dağlıq Qarabağ konfliktinə dair verdiyi açıqlamanı Kremlin mövqeyinə adekvat cavab saymaq olardı".

**AĞ Partiyanın sədri Tural Abbaslı da qərarı müsbət addım adlandırdı:** "Hakimiyyətin Qarabağ və məcburi köçkünlərlə bağlı atdığı istənilən müsbət addımını siyasi mövqeyimizdən asılı olmayaraq dəstəkləyirik və bundan sonra da dəstəkləyəcəyik. Qarabağ bizim ümummilli məsələmizdir. Cocuq Mərcanlı ilə bağlı qərarın bir neçə baxımdan əhəmiyyəti var. Burda heç bir siyasi rəqabətdən söhbət gedə bilməz. Müharibə həm də psixoloji aparılır. Hətta bir kəndin bərpa olunub əhalinin geriyə qaytarılması Ermənistanla psixoloji müharibədə üstünlüyümüzdür. Xeyirli-uğurlu olsun. İnşallah, rayonlarımız azad olunar və digər kəndlərimiz, rayonlarımızın bərpası haqqında qərarlar verilər".

❑ **Etibar SEYİDAĞA**



## Viktoriya Nulandı Ermənistandakı keçmiş səfir əvəz edə bilər

**ABŞ dövlət katibinin Avropa və Avrasiya işləri üzrə köməkçisi Viktoriya Nuland öz postunu tərk edir və diplomatik xidmətdən uzaqlaşmağa hazırlaşır.**

Virtualaz.org "Assosiated press"ə istinadən xəbər verir ki, Viktoriya Nulandla birlikdə Obama administrasiyasının dövründə Dövlət Departamentində işləmiş daha bir neçə diplomat işdən çıxacaq. Onların arasında Nulandın köməkçiləri Coys Barr və Mişel Bond, dövlət katibinin diplomatik təhlükəsizlik üzrə köməkçisi Qreqoi Starr, dövlət katibinin müavini Parik Kennedi də yer alır. Gözlənilir ki, Viktoriya Nulandın yerini ABŞ-ın Ermənistandakı keçmiş səfiri Con Heffern tutacaq. Nuland Ukraynada "Maydan" hadisələrinin rejissoru və qatı anti-Rusiya mövqeli diplomat kimi tanınır.



## Ermənistanın sabiq naziri ölkədən qaçdı

**Ermənistanın sabiq maliyyə naziri Qaqik Xaçatryan ailəsi ilə birgə ABŞ-a köçüb.**

Azvision.az xəbər verir ki, onun oğlanları artıq uzun müddətdir Los-Ancelesdə biznes sahibidirlər.

Xaçatryan ailəsindən yaxın qohumları öldüyü üçün ABŞ-a getdiklərini deyiblər. Əslində isə Xaçatryanın Ermənistanda seçkiöncəsi başlaya biləcək qarayaxma kampaniyasından yayınmaq üçün ABŞ-a köçdüyü bildirilir.

Daha əvvəl erməni KİV-ində Qaqik Xaçatryan və onun qardaşı oğlunun korrupsiyada ittiham olunması ilə bağlı məlumatlar yayılmışdı. Sonradan sabiq nazirin Los-Ancelesin Vestvud rayonunda dəbdəbəli villasının olduğu məlum olub.

"Hraparak" nəşri yazır ki, bu məlumatlar hökumətin arxivlərində qalır və lazım olan vaxt ona qarşı istifadə oluna bilər.

# "Rossiya-24" kanalının Azərbaycanla bağlı "korluğu"

## Rusiya telekanalı niyə Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunlarını "unudub"?; ekspert "siyasi məsələdir" deyir




**Bir müddətdir ki, Kreml hakimiyyətə yaxınlığı ilə seçilən "Rossiya-24" kanalı 2017-ci ildə dünyada keçiriləcək ən mühüm yarışların statistikasını verirlər. Bu statistikada hətta dünya ictimaiyyətinə çox az məlum olan yarışlar da yer alsa da, Azərbaycanda keçirilməsi planlaşdırılan İslam Həmrəyliyi Oyunları statistikadan kənarda qalıb. Belə ki, kanalda bu oyunlarla bağlı hər hansı bir informasiya verilmir. Bir məqamı da qeyd edək ki, kanalın istənilən mövzu ilə bağlı statistikası hər zaman dəqiqliyi ilə seçilir.**

Bəs bu ilin may ayında Bakıda keçirilməsi planlaşdırılan 21 idman növü üzrə 57 dövlətin 6 000-ə yaxın idmançısının mübarizə aparacağı yarış nə üçün "Rossiya-24"ün statistikasına salınmayıb?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a bildirib ki, bu, siyasi bir məsələdir: ""Rossiya-24" kanalının Bakıda keçiriləcək İslam Həmrəyliyi Oyunlarını öz statistikalarına salmamaları siyasi məsələdir. Bu oyunlar heç də Rusiyada keçiriləcək idman yarışlarından əskik deyil. Bakıda keçiriləcək İslam Həmrəylik Oyunları, ümumiyyətlə, İslam ölkələri tarixində ilk kütləvi idman tədbiridir. Zənnimcə, həmin televiziya bu oyunlar haqqında da mütləq məlumatlar yaymalıdır. Əgər yaymırsa, bu, Azərbaycana qarşı informasiya blokadasının bir formasıdır. Yəni onlar Azərbaycanı təbliğ etmək, ölkəmizin böyük tədbirlərə ev sahibliyi etməsi ideyasını Rusiya ictimaiyyətinə çatdırmaq istəmirlər. Bu xətt televiziyanın öz rəhbərliyinin xətti, eyni zamanda Kremlin hansısa bir siyasi dairələrindən verilmiş göstəriş də ola bilər. Çünki burada qərəz, məkr və Azərbaycana qarşı informasiya blokadasının elementləri var. Bu baxımdan, hesab edirəm ki, məsələ ilə bağlı Azərbaycan tərəfi fəal olmalıdır. Bu məsələ Azərbaycan televiziyalarında, kütləvi informasiya vasitələrində işıqlandırılmalı və qərəzin səbəbini açan geniş yazılar dərc olunmalıdır".

**Politoloq bildirib ki, rus televiziyasının görməməzlikdən gəlmək planı pozulmalı və ona qarşı ciddi təbliğat kampaniyası aparılmalıdır:** "Bəllidir ki, Rusiya kütləvi informasiya vasitələrinin hamısı pul qarşılığında iş görürlər. Azərbaycana qarşı isə tam olaraq informasiya blokadası həyata keçirirlər. Təkcə Qarabağ məsələsini qeyd etmirəm. Digər məsələlərdə də bu, belədir. Ancaq bunun əksi olaraq, ermənilərin ən xırda bir məsələsini də işıqlandırırlar. Doğrudur ki, Rusiya telekanallarının çoxunda ermənilər işləyirlər. Ancaq düşünürəm ki, bunun məsələyə bir o qədər də təsiri yoxdur. Ermənilər burada sözsüz ki, müəyyən rol oynayırlar. Ancaq bu, siyasi kursdur və siyasi rəhbərliyin verdiyi göstərişlərdir. Müəyyən mənada ermənilər bu məsələyə təsir göstərə bilsələr belə, Rusiyanın özü istəməsə, bunu ermənilər təkbaşına həyata keçirə bilməzlər".

Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin də mövqeyini almağa cəhd göstərdik. Lakin zənglərimizə cavab verilmədi.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017



# Narahat dəllək xalqa qarşı

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud rahat fırıldaq

**Hərə böhranı bir cür yola verməyə çalışır. Hökumət qandalları daha çox sıxmaqla, xalq isə milli-mənəvi dəyərlərimizə uyğun - qaçaq-quldurluqla problemləri həll etməkdədir. Bazarlar və dükanlar saxta məhsullarla, idarə və müəssisələr də brak adamlarla dolmaqdadır. Bir müşahidəmi sizinlə bölüşmək istəyirəm: ən çox saxtalaşdırılan məhsullar təmizlik, gigiyena mallarıdır. Təmizliyimiz saxtalaşdırılıb - rəmzi olaraq. Xüsusən məhəlləadaxili kiçik marketlərdə satılan şampun, yuyucu toz, diş pastası, sabun və sairə belə şeylərin azı 50 faizi saxtadır. Bu malları kustar sexlərdə, qanunsuz şəkildə düzəldirlər, eşitdiyimə görə, Hökməli kəndi tərəflərdə bu sexlərin nəsə mərkəzi vardır. Orijinalından qat-qat ucuz satırlar, millət də neyləsin, kasıbçılıqdır, ucuz olmasına aldanıb alır. Hətta bilənlər də alır, çünki əlacsızlıqdır.**

Ancaq indi yazacağım fırıldaq bunların hamısından orijinal olması ilə diqqətimi çəkdi. Düzü, fikrimcə, bunu fikirləşən lotu çoxdanın lotusudur - böhranın 2 ilində bu “qanacağı” əldə etmək mümkün olmazdı.

“naRahat” adlı bir marketlər şəbəkəsi var, orda rastlaşdığım başqa fırıldaq üzündən *(pulsuz bonus kartını çekə salıb pul çıxmışdılar)* çalışıram uzaq durum. Təzəlikcə əlac olmadı, girib bir-iki ərzaq məhsulu aldım. Çıxanda hiss elədim ki, nəsə kassada vurulan qiymət elə bil piştaxtadakı qiymətdən fərqli oldu. Yerindəcə bunu aydınlaşdırmağa vaxt olmadı, evə gəlib çekə diqqətlə baxdım və fırıldağın mahiyyətini başa düşdüm. Vallah, yenə deyirəm, bunu fikirləşən lotuya “Şöhrət” ordeni vermək lazımdır. İzah edim. Öncə qeyd edim ki, fırıldaq elə qurulub, burda istəsən qanun pozuntusu da tapa bilməzsən! Sözün əsl mənasında adamı dolayırlar. Misal üçün, mənə verilən çekdə aldığım qabaq *(“kabaçki” - el dilində)* tərəvəzinin qiyməti 2 manatdan çox eləmişdi. Cəmi 2 ədəd kiçik qabaq. Çekdə də bu məbləğdir. Fırıldaq isə odur ki, bunlar çekdə qabağın kilosu neçəyədir, onu yox, 380 qramı neçəyədir (5 manat 50 qəpik imiş) onu göstəriblər! Heç mən aldığım neçə qramdır, o da yazılmayıb. O cümlədən, piştaxtalara da bu tip qiymətlər yapışdırıblar. Misal üçün, başqa dükanlarda 3 manatı keçməyən xiyarı 6 manatdan baha satırlar, ancaq bu qiymət piştaxtada belə yazılır: “0,305 kq x 2,45 azn”. Nəticədə mənim aldığım 2 xiyarın dəyəri 1 manat 56 qəpik olmuşdu, üstəlik heç məlum deyildi mən neçə qram xiyar almışam. O üskük oynadıb altındakı kürəciklə camaatın cibinə girənlər vardı ha, təxminən elə bir şeydir.

Necə deyərlər, baş yaxşı başdır, ancaq fırıldaq və xiyara sərf edilib. Yoxsa dünyanın başqa harasında “305 qram”, “380 qram”, “505 qram” (lobyanı belə göstərmişdilər) kimi çəki vahidləri var? Açıq satılan, çəki ilə olan məhsulun qiyməti kiloqrama uyğun yazılmalıdır. Bunlar isə malın kilo ilə qiyməti baha olduğundan özlərindən uydurduqları vahidlə yazırlar. Başa düşürəm, bunu əyani görməyənlərə izah etmək çətindir. O üzdən təkrar yazdım.

Bu “naRahat” marketlər şəbəkəsinin müdirinə pul lazımdırsa, nəsə xəstəliyi-filanı varsa, bunu açıq desin, biz də pul yığaq, verək. Yoxsa zəhmətkeşlərimizi belə dolamaq lazım deyildir.

Sonda bir maraqlı fakt. Dükan-bazara aid deyil, ta o söhbəti bağladıq. Demək, keçən il Britaniyada referendum keçirildi, xalq Avropa Birliyindən çıxmağa səs verdi. Bu da taleyin oyunudur, Türkiyə kimi ora girməkdən ötrü sino gedən dövlətlər var, ingilis camaatı isə çıxmağı istədi. Ancaq hələlik Britaniya AB-dən çıxa bilmir, çünki yerli əngəllər qalır. Misal üçün, 2 nəfər ali məhkəməyə ərizə verib ki, bəs, parlamentin qərarı olmadan, tək referenduma görə hökumət bizi AB-dən çıxarırsa, bu qanunidirmi? Bəs bizim AB üzvü olarkən 40 ildə qəbul elədiyimiz qanunlar hara getsin? Məhkəmə də qərar verdi ki, yox, qanuni deyil, gərək parlamentin də razılığı olsun. Söhbət hələ çox çürüyəcək, mən isə maraqlı faktı yazım: həmin məhkəməyə müraciət yazan 2 nəfərdən biri Deyr Duş Santuş adlı dəlləkdir. Saç ustası. Bərbər. Kefiniz necə istəyir elə də oxuyun. Bir dəllək məhkəməyə müraciət edib, milyonlarla adamın səs verdiyi qərarın icrasını ləngidə bilir.

Bax, bizim milyon il sonra (bəlkə) mahiyyətini başa düşəcəyimiz demokratiya budur. “Çoxluq nə desə odur” - belə demaqogiyalara inanmayın. Demokratiyada azlığın hüquqları da ciddi qorunur.

Sabah saçımı düzəltdirməyə gedəcəyəm, dəlləyimin bu məsələyə mövqeyini öyrənib, sizə çatdıraram.

# Nazarbayev Bakıya və Ankaraya qarşı - prezidentin şok addımının səbəbləri

## Qazaxıstan rəhbəri parlamentin və hökumətin səlahiyyətlərini artırır; 77 yaşlı prezidenti buna nə vadar edir?

**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin yanvarın 25-də xalqa müraciəti şok effekt yaradıb. Müstəqillik illəri ərzində bu ölkənin yeganə dövlət başçısı olan 77 yaşlı Nazarbayev hakimiyyətlə vidalaşacağının anonslarını verib.**



O, müraciətində səlahiyyətlərinin əhəmiyyətli hissəsini parlamentə və hökumətə ötürdüyünü deyib. O bildirib ki, güclü prezident üsul-idarəsi ölkənin inkişafa başladığı, ayağa qalxmağa çalışdığı dövrdə lazım idi.

Bu islahatlarla bağlı Nazarbayev referendumun keçirilməsi ilə bağlı fərman imzaladığını qeyd edib. Onun sözlərinə görə, hakimiyyət qollarının səlahiyyət bölgüsü ilə bağlı islahatlar aparılacaq. “Bundan sonra prezident hakimiyyət qolları arasında ali arbitr rolu oynayacaq. Ölkə başçısı bundan sonra əsasən milli təhlükəsizlik, xarici siyasət kimi məsələlərə diqqət yetirəcək. Hökumət və parlamentin rolu yetərincə güclənəcək. Səlahiyyətlərin bir hissəsi hökumətə və digər icra strukturlarına veriləcək”, - deyə o bildirib.

N.Nazarbayev bildirib ki, söhbət 40-dək səlahiyyətin hökumət və parlamentə verilməsindən gedir. Onun sözlərinə görə, parlament seçkilərində qalib gələn partiya hökumətin formalaşmasında əsas sözə sahib olacaq.

Bütün bu məsələlər ümumxalq referendumuna çıxarılacaq.

Avtoritar rəhbər kimi daha çox tanınan Qazaxıstan prezidentinin bu addımı atmasına baxışlar müxtəlifdir. Ekspertlərin bir qismi hesab edir ki, varisinin olmaması Nazarbayevi bu qərarı almağa vadar edib. Rusiyanın təsirinin getdikcə artdığını görən Qazaxıstan rəhbərinin bu təsirləri azaltmağın yolunu idarəçiliyi dəyişməkdə gördüyünü deyənlər də var.

Maraqlıdır ki, Qazaxıstan türkdilli ölkələrdə cərəyan edən proseslərin tam əksinə gedir. Azərbaycan son referendumla prezident idarə-üsulunu daha da möhkəmləndirib, Türkiyə isə artıq bu istiqamətdə keçid dövrünü yaşayır və parlament idarəçiliyindən prezident üsul-idarəsinə keçmək üçün apreldə referenduma gedir. Lakin Nazarbayev prezidentlik idarəçiliyini parlamentə təslim edir.

**Politoloq Elxan Şahinoğlu Qazaxıstan rəhbərinin addımını təqdir etdiyini qeyd etdi:** “Əslində Nazarbayev bu dəyişikliklərin anonsunu ötən il vermişdi. Bunun bir neçə səbəbi var. Bir səbəb odur ki, Nazarbayev yaşlaşıb və özündən sonra sabit və inkişaf etmiş Qazaxıstan qoyub getmək istəyir. Bunun üçün fikirləşib ki, özü kimi xarizmatik lider hazırda Qazaxıstanda yoxdur, bu da gələcəkdə müəyyən təhlükələrə yol aça bilər. Buna görə də səlahiyyət bölgüsünə gedir. Xarici və müdafiə səlahiyyətləri yenə də onun əlində qalır. Sadəcə, Qazaxıstan iqtisadiyyatında müəyyən problemlər yaranıb. Neftin qiymətinin aşağı düşməsi bu dövlətə də təsirsiz ötüşməyib. Nazarbayev istəmir ki, bu yük onun üzərində qalsın. Ona görə hədəfi dəyişir ki, iqtisadi və sosial problemlərə görə baş nazir məsuliyyət daşısın. Hansı ki, o naziri də Nazarbayev təyin etməyəcək. Seçkilərdə parlamentdə üstünlük qazanan partiya hökuməti formalaşdıracaq və bu zaman baş nazir məlum olacaq. Qazaxıstanda başqa təhlükələr də var. Ölkə əhalisinin 40%-i rusdillidir. Nazarbayev Ukraynada yaşanan hadisələrin Qazaxıstanda təkrarlanacağından ehtiyatlanır. Buna görə də Rusiya ilə yaxınlıq edir, Avrasiya Birliyinin üzvüdür. Bir müddət öncə Putin Ukrayna barədə danışarkən demişdi ki, Nazarbayev olmasaydı, Qazaxıstan adlı dövlət olmazdı. Əslində demək istəyir ki, Nazarbayev yanlış siyasət yürütsəydi, Rusiya Ukrayna kimi bu ölkəni də parçalayardı. Nazarbayev bu təhlükəni də görür. Ona görə çalışır ki, özündən sonra gələnlər də bu təhlükəni daim duysunlar və aparılan siyasəti davam etdirsinlər. Qazaxıstanın milli və təhlükəsizlik maraqları da öndə olan məsələdir. Xarici siyasətdə Qərbə dönüş Qazaxıstana ciddi problemlər yarada bilər. Ukrayna nümunəsi ortadadır. Nazarbayev öz ölkəsinin sonrakı taleyini də düşünür. Bunun üçün özündən sonra elə miras qoymaq istəyir ki, Qazaxıstanda problemlər yaşanmasın”.

**Politoloq parlamentli ölkənin üstünlüklərindən də danışdı:** “Mən də belə idarəçiliyin tərəfdarıyam. Dünyada əks proseslər gedən ölkələr var, Türkiyə parlamentdən prezidentliyə keçir. Amma parlamentar dövlətin daha çox uğur qazanması mümkündür. Qonşuluğumuzda oxşar proseslər gedir, Gürcüstan parlamentli ölkə, hətta düşmən Ermənistan konstitusiya dəyişiklikləri edərək bu idarə üsulunu seçib. Heç kimin gözləmədiyi halda Qazaxıstan da bu yolu seçdi. Düşünürəm ki, Azərbaycan da öz keçmişinə qayıtmalıdır. Babalarımız Cümhuriyyəti qurdular, özü də parlamentli respublika üstündə. Bir vaxt gələcək, Azərbaycan da bu idarəçiliyə keçəcək”.

**E.Şahinoğlu Qazaxıstanda bir sıra qüvvələrin hakimiyyətə iddialı olduqlarını bildirdi:** “Oranı təhlil etmişəm, hakimiyyətin daxilində iddialı bir neçə qruplaşma var. Bu ayda bir neçə həbslər həyata keçirildi. Hakimiyyət özü də Nazarbayevdən sonrakı duruma hazırlaşır. Nazarbayev yaxşı bilir ki, o gedərsə, bu qruplar arasında qarşıdurmalar yaranar. Ona görə çalışır ki, həmin qruplar parlament uğrunda mübarizə aparsınlar. Əgər indiki sistem, yəni prezident üsul-idarəsi qalsa, o zaman həmin qruplar arasında ciddi mübarizə gedəcək. Bundan da xarici qüvvələr, o cümlədən Rusiya istifadə edə bilər. Məhz buna görə Nazarbayev parlament üsul-idarəsinə üstünlük verdi. Burada başqa sual meydana çıxır. Qazaxıstanda demokratik seçki keçirmək ənənəsi varmı? Bəli, yaxşıdır, parlamentin səlahiyyətləri artırılır. Amma ədalətli seçki keçirilməlidir ki, insanlar hansı partiyanın qələbə çalacağını bilsinlər. Əgər şəffaf seçki olmazsa, o zaman problemlər daha da artar. Əvvəllər neftdən yüksək gəlir götürülürdü və Nazarbayevin ağlına o zaman gəlməzdi ki, nə vaxtsa idarə üsulunu dəyişə bilər. Amma indi vəziyyət tamam başqadır və Nazarbayev problemləri həll etməkdə özünü aciz görür. Xalq günahkar kimi onu görür. Buna görə problemləri baş nazirə yükləyir ki, cəmiyyət onu günahkar görməsin. İqtisadi duruma görə əslində idarəçiliyi dəyişir. Hər dövlətin öz yolu var. Bizə ən çox parlamentar idarəçilik vacibdir. Bütün idarəçiliyin bir əldə cəmləşməsi təhlükələr yaradır. Sadə bir misal çəkim, baş nazirimizin 80-dən çox yaşı var. Parlamentdə ən çox deputatla YAP təmsil olunur, amma Artur Rasi-Zadə YAP tərəfindən seçilməyib. Ona görə məsuliyyəti də yoxdur. İqtisadi vəziyyətə görə kimin məsuliyyət daşıdığını bilmirik. Bütün səlahiyyətlər prezidentin əlindədir. Biz də Qazaxıstan yolunu zaman gələcək seçəcəyik”.

❑ Cavanşir ABBASLI

# Beynəlxalq təşkilatın demokratiya hesabatı - Bakıdan fərqli reaksiyalar




**"The Economist Intelligence Unit" beynəlxalq təşkilatı 2016-cı ilin demokratiya indeksini açıqlayıb. Yeni sənəd dünya ölkələrinin təxminən yarısının demokratik hesab edilə biləcəyini, amma "tam demokratik" ölkələrin sayının azaldığını - 20-dən (2015) 19-a (2016) düşdüyünü göstərir. Hətta ABŞ "tam demokratik" ölkələr sırasından çıxıb, "qüsurlu demokratik ölkələr"in siyahısına düşüb. Sənədin müəllifləri bunu ABŞ-da hökumətə və seçki rəsmilərinə etimadın azalması ilə izah edirlər.**

Azərbaycan demokratiyanın səviyyəsinə görə 165 ölkə arasında 148-ci yeri tutur, Zimbabve (140), Qambiya (143), Cibuti (145) kimi Afrika ölkələrindən, Bəhreyn (146), Birləşmiş Ərəb Əmirliklərindən (147) sonra gəlir. Azərbaycandan sonra Əfqanıstanın, Afrikanın Burundi və Sudan respublikalarının və s. adı çəkilir. Qafqaz ölkələrindən Gürcüstan demokratiyanın dərəcəsinə görə 78, Ermənistan 120-ci yeri tutub. Türkiyə 97, Rusiya 134, İran 154-cü yerdədir.

**Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a bildirib ki, siyahı açıq-aşkar Azərbaycana qarşı düşmənçiliyin göstəricisidir:** "Azərbaycan keçdiyi tarix və bugünkü idarəçilik prinsipinə görə demokratik dövlətdir. Burada demokratik idarəçilik var. Ən azı Azərbaycanda azad mətbuat, internet var, seçkilər keçirilir. Bu ayrı məsələdir ki, xaricilərin dili ilə desək, seçkiyə müdaxilə və digər bu kimi hallar ola bilər. Ancaq mahiyyət etibarı ilə Azərbaycan demokratik dövlətdir. Azərbaycanı aparıb Afrika dövlətləri, Ermənistanla bir yerə qoymaq qərəz deyil, daha artığı olan düşmənçilikdir. Bütün bunlar həmçinin Azərbaycana qarşı siyasi sifarişin olduğunun göstəricisidir. Hazırda Azərbaycanın uğurları dünyada hər kəsə bəllidir. O cümlədən Ermənistana qarşı uğurlarımız da göz önündədir. Azərbaycan bütün parametrləri üzrə irəliləyən dövlətdir, Ermənistan isə hər cəhətdə geriləyir. İndi buna görə də



**Mübariz Əhmədoğlu:** "Bu, Azərbaycana qarşı düşmənçiliyin göstəricisidir"



**Sərdar Cəlaloğlu:** "Şəhərin nəinki mərkəzində, elementar meydanında da aksiya keçirə bilmirik"

ermənilər başqa müstəvilərdə Azərbaycanın qarşısında dura bilmirlər, bu kimi yollara əl atırlar. Hər zaman dünyadakı ermənilər bu cür məsələlərdən ediblər. Onlar bu yolla ağıllarınca Azərbaycanı ləkələmək istəyiblər. Son zamanlar da ermənilərlə Azərbaycanın arasındakı münasibətlər çox kəskinləşib. Ona görə də ermənilər beynəlxalq miqyasda bizə qarşı hücumlarını bir qədər də gücləndiriblər. Nəticədə isə əvvəllər 50-70-ci yerlərdə olduğumuz halda, hazırda 148-ci yerdəyik. Bu, ermənilərin gördükləri işlərin hesabınadır və reallıqdan çox uzaqdır".

**Politoloq bildirib ki, bütün bunlar köhnəliyin göstəricisidir:** "Yəni bunlar, sabiq Amerika prezidenti Barak Obama dövrünün tör-töküntüləridir. Düşünürəm ki, yeni prezident Donald Tramp artıq dünyaya öz yeni mesajını verib və bundan sonra digər ölkələrin bir-birinin daxili işlərinə qarışmaq məsələsi aktual olmayacaq. Bu baxımdan, hesab edirəm ki, Trampın qayda-qanunları qüvvəyə minən kimi görəcəyik ki, Azərbaycan demokratik dövlətlər siyahısında birinci əllilikdə yer alıb. Azərbaycanda Qərb institutları da açıla bilər. Artıq göründüyü kimi, Nazirlər Kabineti qərar qəbul etdi və xarici təşkilatların yerli təşkilatlara qrant vermək prosesi sadələşdirildi. Yəni bu istiqamətdə proseslər gedir və Qərb təşkilatlarından mövqeyi dəyişənlər Azərbaycanda yenidən açıla bilər. İlk olaraq ikili standartlar aradan qaldırılmalıdır".

**ADP sədri Sərdar Cəlaloğlu isə hesab edir ki, mövcud siyahı gerçəkliyi əks etdirir:** "Azərbaycanda demokratikləşmənin vəziyyəti olduqca ağırdır. Ermənistanın da siyahıda bu məsələdə öndə gəlməsi hesab edirəm ki, doğrudur. Çünki orada İrəvanın mərkəzində çıxıb rahat şəkildə aksiya edə bilirlər. Azərbaycanda isə bu kimi hal mümkün deyil. Heç şəhərin nəinki mərkəzi, elementar meydanında da aksiya keçirə bilmirik. Afrika ölkələrindən də geri olmağımızın digər bir səbəbi var. Dünya məsələni bu cür qiymətləndirir ki, misal üçün, Afrikada meşədən çıxıb, dövlət yaradıblar. Bu dövlətin isə tarixi ya bir neçə ay, yaxud da bir neçə ildir. Azərbaycanda isə ilk olaraq 1918-ci ildə demokratik cümhuriyyətin əsası qoyulub. Sonra isə Azərbaycan sovet hüquqi sistemindən çıxıb, ancaq ölkədə hüquq yoxdur. Yəni onlar meşədən çıxıb Avropa dəyərlərinə uyğun olmasa da hüquqi sistem, dövlət yaradıblar. Ancaq Azərbaycan özündən əvvəl ciddi bir hüquqi sistemdən çıxmasına baxmayaraq, hələ də sovet hökumətinin dəyərləri səviyyəsində belə öz xalqı ilə davranmır. Müqayisə etdikdə bunu bir geriləmə kimi nəzərdə tuturlar. Yəni bu dəyərlər nisbidir. O baxımdan da Azərbaycan siyahıda Afrika ölkələrindən də geridədir".

❑ **Əli RAİS**

# Avropa İttifaqı ilə rəsmi Bakı ortaq komissiya qurur - kimlər var...

## Fevral ayında başlanacaq danışıqlar prosesi demokratiyaya nə vəd edir?

**Fevralda Avropa İttifaqı və Azərbaycan arasında tərəfdaşlıq haqqında saziş üzrə danışıqların başlanması planlaşdırılıb. 2016-cı ilin noyabrında Avropa İttifaqı (Aİ) Şurası danışıqların başlanması üçün mandat verib. Aİ ölkələrinin xarici işlər nazirləri Azərbaycanla daha yaxın əlaqələr barədə yeni "hərtərəfli saziş" hazırlanmasına qərar veriblər. Keçən il noyabrın 14-də Brüsseldə keçirilən toplantıda məsələ ilə bağlı danışıqlar aparmaq üçün Avropa Komissiyası və birliyin xarici siyasət məsələləri üzrə rəsmisi Federika Moqereniyə mandat verilib.**

Hazırda tərəflər nümayəndə heyətinin tərkibini formalaşdırır. "Yeni Müsavat"ın məlumatına görə, komissiyada diplomatlarla yanaşı, deputatlar da yer ala bilər. Azərbaycandan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin rəhbərlik edəcəyi bildirilir.

Sazişin ticarət-iqtisadi məsələlərdən başlamış insan hüquqları və demokratik prinsiplərə əməl olunması məsələlərini əhatə edəcəyi qeyd olunur.

Danışıqlara başlanması Brüsseldə hər iki tərəfdən yüksək vəzifəli şəxslərin iştirakı ilə keçiriləcək tədbirdə elan ediləcək.

Hazırda Aİ və Azərbaycan arasında münasibətlər 20 il öncə imzalanmış və 17 il öncə qüvvəyə minmiş tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş çərçivəsində tənzimlənir. Yeni saziş tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişi əvəzləyəcək. Yeni sazişin Aİ-nin Gürcüstan, Ukrayna və Moldova ilə imzaladığı assosiasiya sazişindən az detallı olacağı bildirilir.



Bakı Brüssellə danışıqların başlamasından məmnundur. Azərbaycan Avropa İttifaqının onunla hərtərəfli əməkdaşlığa dair danışıqlar aparılmasından ötrü mandatın verilməsini alqışlayır. Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federike Moqereniyə belə mandatın verilməsini şərh edərkən bildirmişdi.

**Bəs bu proses Azərbaycanda demokratiyaya müsbət təsir göstərəcəkmi?**

**Politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, Azərbaycanla Avropa İttifaqı arasında imzalanması nəzərdə tutulan sazişdə çox güman ki, ümumi prinsiplər deyil, əməkdaşlığın konkret sahələrini əhatə edən müddəalar yer alacaq. Saziş ikitərəfli olduğu üçün bütün müddəalar razılaşdırılacaq:** "Yəni perspektivdə qarşılıqlı əməkdaşlığa manea yarada biləcək hər hansı bir müddəanın sazişdə yer ala biləcəyi inandırıcı görünmür. Bu saziş konkret olaraq Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətləri tənzimləyəcək. Bu baxımdan, hətta Şərq Tərəfdaşlığı Proqramında yer alan prinsiplərin belə sazişdə əks olunmaması gözlənilir. Son bir neçə il ərzində Azərbaycanla Avropa İttifaqı qarşılıqlı münasibətlərin inkişafını mümkün edən istiqamətlər və bu münasibətlərə manea yarada biləcək məsələlərlə bağlı kifayət qədər təcrübə qazanıblar. Xarici məsələlər üzrə Avropa komissarı Federika Moqereninin və Aİ-nin digər rəsmilərinin də açıqlamalarında hiss olunur ki, Azərbaycanla münasibətlər hər iki tərəfi birləşdirə biləcək və əməkdaşlığa manea yaratmayacaq amillər üzərində qurulacaq. Bu, uzunmüddətli bir prosesdir. Bu baxımdan, mən məsələnin demokratiya, yaxud digər hər hansı bir müstəviyə çəkilməsini doğru hesab etmirəm. Azərbaycan elan etdiyi yol xəritələri ilə özünün inkişaf strategiyasını ortaya qoyub. Yol xəritələri və bundan irəli gələn islahat prosesi Azərbaycanın öz seçimidir. Bu baxımdan, prosesdə hər hansı bir kənar müdaxilənin rol oynaya biləcəyi inandırıcı görünmür. Bunu əsaslandıran mühit və zəmin də yoxdur. Qənaətimə görə, Azərbaycan-Aİ münasibətləri bundan sonra tərəflərin birgə müəyyənləşdirdiyi və razılaşdırdığı prinsiplərə əsaslanacaq".

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirdi ki, Avropa İttifaqının Azərbaycanla daha yaxın əlaqələr qurması barədə qərarı mütərəqqi addımdır. İki ilə yaxındır ki, Aİ və Azərbaycan arasında ciddi məsləhətləşmələr aparılmır və bu illər ərzində vəziyyət heç də yaxşılığa doğru getməyib. Ölkədə vəziyyət həm demokratiya, həm də sosial sahədə pisləşib:** "İndi deyərdim ki, hər iki tərəf daha sağlam və iddiasız düşünməyə başlayıb. Avropa İttifaqı Azərbaycan iqtidarının iradəsini sındırıb özü istədiyi formatda əməkdaşlıq qəbul etdirə bilmədi. Azərbaycan da bu birliklə münasibətləri korlamaqla özünü vacib sərmayə və iqtisadi imkanlardan məhrum etdi.

Fevral ayında danışıqların başlaması hərtərəfli xeyrimizdir və təbii ki, demokratik inkişaf üçün də müəyyən stimullar yaradacaq"

❑ **Etibar SEYİDAĞA**



# Siyasi müflis

Elşad MƏMMƏDLİ
elshad1978@gmail.com

**İllər öncə Azərbaycan siyasətində bir şəxs vardı. Əli Kərimlinin dəstəsindən idi. 1995-ci ildən 2010-cu ilədək ölkədə keçirilən bütün parlament və bələdiyyə seçkilərində namizəd olmaq kimi hobbisi vardı. Bəzən namizədliyi qeydə alınır, bəzən alınmırdı. Amma heç zaman seçilə bilmirdi. Bir dəfə bundan soruşdum ki, görürsən alınmır, təkrar-təkrar niyə özünə əziyyət verirsən? Qayıtdı ki, bizim məqsədimiz bütün seçkilərdə demokratik dəyərləri yaymaqdır, cəmiyyətin demokratikləşməsinə töhfə verməkdir, daha böyük planlar üçün elektorat toplamaqdır-filan. Pafoslu cümlələrini bitirib, diqqətlə üzümə baxdı. Ona elə gəldi ki, bütün dediklərinə inanmışam. Mənim bildiyim dəqiq informasiya isə bu idi ki, o şəxsin bütün seçkilərə qatılmasının məqsədi həmin dairə üzrə pul-parası olan digər namizəddən - rəqibindən pul alıb, onun xeyrinə geri çəkilmək olub. Belə bir "siyasi biznes" də var idi ötənlərdə. Sonra o biznes "öldü", adam da qaçdı getdi Avropaya. Bununla da onun demokratiya mübarizəsi bitdi..**

Ümumiyyətlə, Əli Kərimlinin "rejimə qarşı mübarizə", "demokratiya savaşı" konsepsiyası elə yuxarıda danışdığım qoçağın "siyasi həyat hekayəsin"in eynisidir. Son aylarda baş verənlər göstərir ki, Ə.Kərimli artıq iqtidara gəlmək, siyasi mübarizə aparmaq iddialarından tamamilə əl çəkib. Dünyada bəlli bir siyasi təcrübə var; bir qayda olaraq hakimiyyət iddiası olan və öz dediyinə özü inanan şəxslər ətrafına ciddi komanda toplayır və onları qoruyub saxlayır. Əli Kərimlinin isə ətrafında hazırda hərşeyşünas Nurəddin Məmmədli və bir neçə siyasətə təsadüfən gəlib düşmüş adamdan başqa kimsə qalmayıb. Hara getdi onun ətrafındakılar? Yarısı - hansı ki, onlar Əli Kərimlinin siyasi oyunlarından az-çox məlumatlı idilər - ondan üz döndərib tamamilə siyasətdən çəkildilər. Qalan yarısı - təxminən 1 il öncəyədək AXCP sədrinin "rejimlə sonadək mübarizə aparacağıq, biz qalib gələcəyik" kimi hayqırtıları sosial şəbəkələri başına götürən tərəfdarları isə bir-bir ölkədən əkildilər. Kərimlinin komandasının vitrin üzvlərinin 80 faizi artıq Avropadadır. Hərdən sosial şəbəkələrdə virtual qəhrəmanlıqlar edirlər, vəssalam. Hə, bir də ermənilərə qoşulub Azərbaycan dövlətinə qarşı kampaniya aparmaqla para "qazanırlar". Əlbəttə, bu işi Əli Kərimlinin şərikliyi olmasa həyata keçirmələrinə imkan verilməz. Kərimli şəxsən özü "ifşa" edər onları.

Şübhəsiz, onların hamısı "dahi siyasətçi"nin xeyir-duası və arayışları ilə gedib xarici ölkələrdə oturum alıb yaşayırlar. Başqa sözlə, Kərimli komandasını özü dağıdır. Səbəb nədir? Çünki həmin adamlar da, Əli Kərimli özü də artıq heç bir siyasi iddialarınln baş tutmayacağını qəbullanıblar. Və Avropada halaylanıb çirkli yollarla pul qazanmağı prioritet seçiblər...

O da sirr deyil ki, AXCP sədri öz yaxınlarını da çoxdan Avropada yerləşdirib. Hakimiyyətə gəlmək inamı olan şəxs bütün çevrəsini siyasi səhnədən uzaqlaşdırmaz axı. Hər halda, məntiq belə deyir...

AXCP sədri mübarizədən əl çəkdiyini həm də uzun illərdir nəzarətində saxladığı, partiya qəzetinə çevirdiyi "Azadlıq" qəzetini də qapatması ilə təsdiqləmiş oldu. Son 10 gündə "Azadlıq"ın faktiki redaktoru da qəzetdən tam aralaşıb, digər əməkdaşlar da AXCP rəhbərliyində olan şəxslər kimi, Avropaya yollanıblar. Deməli, Kərimliyə artıq qəzet də lazım deyil, bu, onun siyasi iddialarından əl çəkməsinin daha bir təsdiqidir.

Daha bir fakt: İki ildir ki, AXCP qurultay keçirib, ancaq hökumət partiyadakı parçalanmaları əsas göstərərək, onu qeydiyyata almaqdan imtina edib. Əli Kərimli daha bu məsələdən də danışmır, haray salmır. Təbii ki, siyasi iddialarını dəfn etmiş adama partiya qeydiyyatı lazım deyil...

Faktiki olaraq adam "siyasi müflis"dir. Ümidlərini çevrəsindəkilərlə bərabər Avropada dəfn edib...

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) həbsdə olan generalı Sübahir Qurbanovun dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə sevgisi üzə çıxıb. İntəhası generalın sevgisi dahi şairin qəzəllərinə, şeirlərinə vurğunluğunda ifadə olunmur. Məsələ burasındadır ki, generalın həbsindən sonra onun Bakının Əhməd Cavad, Səməd Vurğun, Üzeyir Hacıbəyov küçələrində və Novxanı qəsəbəsində yerləşən bağ evində axtarışlar aparılıb. Mənzillərdən çoxlu sikkələr, bahalı qələmlər, xüsusi hazırlanmış şahmat və digər qiymətli əşyalar götürülüb.**

# Eldar Mahmudovun həbsdəki generalının Məhəmməd Füzuli sevgisi-ilginc faktlar

## Əkrəm Həsənov: "Generalın evindən cəmi 11 dənə sikkə çıxması təəccüblüdür"



Qiymətli əşyalar içində 1996-cı ildə Mərkəzi Bankın ilk dəfə olaraq tədavülə buraxdığı Məhəmməd Füzuli sikkələri də olub. Cəmi 11 ədəd sikkənin ümumilikdə bazar qiymətinin nə qədər olduğu bilinmir.

Mərkəzi Bankın saytında yer alan məlumatlardan belə aydın olur ki, Azərbaycanın görkəmli şair və mütəfəkkiri Məhəmməd Füzulinin həyat və yaradıcılığının (1494-1556) 500 illiyi münasibətilə gümüş yubiley pul nişanları tədavülə buraxılıb. Yubiley pul nişanları Böyük Britaniyanın "The Royal Mint" şirkətinə sifariş olunub. Yubiley pul nişanının üz tərəfində Məhəmməd Füzulinin siması, arxa hissəsində isə şairin məşhur "Leyli və Məcnun" poemasından bir səhnə əks etdirilib. Yubiley pul nişanı nominal dəyəri ilə Azərbaycan Respublikası ərazisində qanuni ödəniş vasitəsidir.

Əsas parametrlər isə belədir

Buraxılış ili: 1996
Nominalı: 50 manat
Metalı: Ag 925
Çəkisi: 38.61 qr
Diametri: 38.61 mm
Keyfiyyəti: Pruf
Buraxılış limiti: 2900 ədəd

Arestant generalın çoxsaylı evlərindən çıxan təkcə dahi şairin siması olan sikkələr olmayıb. S.Qurbanovun Əhməd Cavad küçəsindəki evindən üzərində Avstriya İmperatoru Frans İosifin rəsmi əks olunmuş kulon, oval formalı 1 ədəd qədim sikkə, mirvari qaşlı sırğa, ağ və qəhvəyi rəngli 6 ədəd mirvari qaşla bəzədilən üzük, üzərində "Geneva" sözü yazılmış qolbaq saat tapılıb. Onun S.Vurğun küçəsindəki evindən isə xeyli sikkə aşkar edilib. Belə ki, həmin mənzildən "Zeyvə" xalçası, üzərində Heydər Əliyevin təsviri olan döş nişanı, üzərində "Naxçıvan Muxtar Respublikası, 1924-2009, 85 il, Azərbaycan Respublikası, 5 manat" yazıları olan gümüşü rəngli 10 ədəd sikkə, xarici ölkələrdə istehsal olunan 100-300 dollar dəyərində qələmlər, üzərində 90 il, "Heydər Əlirza oğlu Əliyev" yazısı olan sarı metaldan 1 ədəd sikkə, üzərində qılınc və aypara təsviri olan 2 ədəd sarı və gümüşü metaldan hərbi aypara, "Longines" markalı qol saatı, "Frederigue Constanat" markalı, qəhvəyi rəngli kəməri olan 1 ədəd qol saatı, "Dupont" markalı üzərində ağ rəngli qaşları olan 1 ədəd gümüşü metaldan qələm, "Swarovski" daşından düzəldilmiş 32 ədəd şahmat fiqurları, 1 ədəd "Canon" markalı İXUS 75 modelli fotoaparat, üzərində ayı şəkli həkk olunmuş sarı-gümüşü rəngli 1 ədəd xəncər, üzərində "İCE Special Agent" yazısı olan gümüşü rəngli metaldan 1 ədəd nişan aşkar edilərək götürülüb.

Sübahir Qurbanovun bağ evindən isə üzərində "Heydər Əliyev" yazılmış 3d formatlı 1 ədəd portret, sarı metaldan olan 1 ədəd xəncər, 1 ədəd "Visconti" markalı qələm, üzərində "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi" sözləri yazılmış 1 ədəd hədiyyə kompoziyası, 1 ədəd "maurice lacrtix" markalı qol saatı, 1 ədəd "İst dupont" markalı qələm, 4 ədəd disk, 2 ədəd audio kasset, 1 ədəd "FU HUANG" markalı qol saatı, kamotun siyirməsində olan 1 ədəd "CHOPARD" markalı stolüstü saat, DVR markalı videogörüntü əks etdirən kamera nəzarətinə aid aparat, nağd pullar və sənədlər aşkar edilərək götürülüb.

Generalın bağ evindən çoxlu sayda sikkələr, qolbaqlar, boyunbağı, kulonlar, sırğa, 11 üzük, video kaset və əlyazmalar olan kitabça götürülüb. Əhməd Cavad küçəsindəki digər evindən isə 3-5 min dollar dəyərində üzərində "MARCO BİCEGO" sözləri yazılan 1 cüt sırğa, üzüklər, qolbaqlar, qələmlər, üzərində çoxlu sayda "RC" yazılan qutunun içərisində komplekt (1 cüt sırğa və 1 ədəd boyunbağı), üzərində "Leo Pizzo" sözləri yazılan qutunun içərisində 1 ədəd qaşlı üzük, 1 ədəd boyunbağı, 1 cüt sırğa, üzərində "Valcambi suisse" sözləri yazılan sarı metaldan dairəvi 1 ədəd sikkə, göy rəngli qutunun içərisində sarı metaldan dairəvi formada 2 ədəd 10-luq, 7 ədəd 5-lik sikkələr, üzərində "AUSTRALİAN KANGAROO" sözləri yazılan 1 ədəd sikkə, üzərində "Azərbaycan Respublikası 100 manat" sözləri yazılan 1 ədəd sikkə, şüşə materialdan olan qutunun içərisində üzərində "ELİZABETH II AUSTRALİA" sözləri yazılan 3 ədəd dairəvi sikkələr və nağd pullar aşkar edilərək götürülüb.

Bəs generalın evindən çıxan sikkələrin real bazar qiyməti nə qədərdir? Belə sikkələri Mərkəzi Bank nə məqsədlə buraxır?

**2001-2005-ci illərdə Mərkəzi Bankda şöbə rəisi vəzifəsində çalışmış, hazırda "Antikollektor" MMC-nin direktoru olan iqtisadçı ekspert Əkrəm Həsənov deyib ki, xatirə sikkələri illər öncədən dövriyyəyə buraxılıb və belə sikkələri əsasən əntiq əşyaların satıldığı mağazalardan almaq olar:** "Qiymətləri haqda konkret söz demək çətindir. Nominal 50 manat göstərilsə də, faktiki qiyməti dəfələrlə artıq olur. Məhəmməd Füzulinin siması ola sikkələri Bakıdakı əntiq əşyalar satılan mağazalardan, Mərkəzi Univermaqdan almaq olar".

**Ə.Həsənov vəzifəli şəxslərin belə əntiq əşyalara böyük marağının varlığının kimsəyə sirr olmadığını da söylədi:** "2900 sikkənin böyük əksəriyyətinin vəzifə sahiblərində olması təbiidir. Çoxlu pulları var, alıb yığırlar. Generalın evindən cəmi 11 dənə sikkə çıxması təəccüblüdür. Belə sikkələrin qiyməti qramına bağlı deyil. Sikkələr bir növ həmin çəkidə, eyni qiymətli metaldan olan məmulatlardan qat-qat, elə vaxt olur ki, 10, hətta 100 dəfə baha olur. Bunu şərtləndirən həmin sikkələrin sayı, məhdud çərçivədə olan şəxslərin əlində olması ilə əlaqəlidir. Əntiq əşya kimi alınır-satılır deyə qiyməti də bahadır".

Qeyd edək ki, S.Qurbanov Cinayət Məcəlləsinin 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə), 182.3.1-ci (hədə-qorxu ilə tələb etmə), 182.3.2-ci (hədə-qorxu ilə tələb etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədildikdə), 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma - gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə törədildikdə), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.2-ci (vəzifə səlahiyyətlərini aşma), 311.3.1 (rüşvət alma, külli miqdarda törədildikdə), maddələri ilə ittiham olunur.

İttihamlar təsdiqlənsə, generalın çoxsaylı evlərindən götürülən, dəyəri milyonlarla ölçülən var-dövlət müsadirə olunacaq.

❑ E.MƏMMƏDƏLİYEV



# Qarabağda müharibə xəbərdarlıqları artır

## Savaş heç bir dövlətə gərək deyilsə, sülh danışıqlarının “donu” niyə açılmır? Rusiyalı tanınmış ekspert Azərbaycan ordusunun potensialını yüksək qiymətləndirdi; Müdafiə Nazirliyi: “Düşmən öz canlı itkilərini gizlədir...”

**Ermənistanın öz əsas havadarı Rusiyaya arxalanaraq Qarabağ danışıqlarında yenidən qeyri-real, təxribatçı mövqe tutması müharibə mövzusunu təzədən gündəmə gətirib. Artıq Qərb analitikləri də bunu görür və həyəcan təbili çalırlar.**



Oleq Kuznetsov

**O sırada britaniyalı jurnalist, Vaşinqtondakı Kornegi Fondunun Qafqaz məsələləri üzrə aparıcı eksperti, “Qara Bağ” kitabının müəllifi Tomas de Vallın fikirləri ilə razılaşmamaq çətindir. Müharibə riskləri baxımından 2016-cı ili “pis” adlandıran ekspert 2017-ci ilin daha pis ola biləcəyinin anonsunu verib. Aprel döyüşlərindən sonra hər şeyin köhnə məcrasına qayıtdığını qeyd edən de Vaal deyib:** “Artıq qarşılıqlı ittihamlar, Azərbaycanın səbirsizliyi, Ermənistanın inadkarlığı yenidən bərqərar olub. Əlbəttə ki, yaxşı müharibədənsə, pis sülh daha yaxşıdır, amma Qafqazda yeni münaqişə minlərlə yeni qurbanlara və iqtisadiyyatın tamamilə darmadağın olunmasına gətirib çıxara bilər”.

**Ekspertin fikrincə, münaqişə tərəfləri bütün hallarda müharibə yolunu seçə bilərlər.** “1994-1995-ci illərdə əldə olunmuş razılaşmanı qüvvədə saxlamaq getdikcə çətinləşir” - Tomas de Vall qeyd edib. Onun sözlərinə görə, hərbi vəziyyət indi təhlükəlidir, amma siyasi vəziyyət də ondan heç də az təhlükəli deyil.

**De Vall Qarabağ münaqişəsinin iplərinin Moskvanın əlində olması barədə qənaətləri də bölüşmür.** “Qısası, Qarabağa görə önləyici zorakılığın baş qaldırmaması üçün önləyici diplomatiyaya ehtiyac var”, - britaniyalı analitik sonda qeyd edib.

*****

Ekspertin fikirləri ilə razılaşmamaq çətindir. Doğrudan da ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsi - Rusiya ABŞ və Fransa Qarabağda yeni müharibə istəmirsə, müharibə heç kimə sərfəli deyilsə, o zaman sual ortaya çıxır ki, sülh danışıqlarının “donu” niyə açılmır? Başqa sözlə, savaş riskini gündəmdən çıxararaq Qarabağa dair önləyici diplomatiya niyə gecikir?

Sözsüz ki, əsas səbəblər böyük güclərin münaqişə ilə bağlı toqquşan maraqları, Kremlin Güney Qafqazla bağlı həlli reallaşmayan planları, habelə Dağlıq Qarabağ məsələsinin dünyanın gündəmində yer almamasıdır. Azərbaycan təbii ki, bu kimi nüansları ciddiyə alır və gərəkəni yapır. Söhbət Silahlı Qüvvələrimizi günü-gündən gücləndirməkdən gedir. Çünki müharibə olsa da, olmasa da, gerçək belədir ki, hərbi qüdrəti böyük olan dövlətlə həmişə hesablaşılır.

**Bu xüsusda rusiyalı tanınmış analitik və tarixçi-alim Oleq Kuznetsovun Azərbaycan ordusunun imkanları haqda qeydləri diqqət çəkir. Analitik deyir:** “Azərbaycan prezidenti İlham Əliyev tamamilə haqlıdır deyəndə ki, hərbi texnikanın alınması, ordunun yenidən texniki təchizatı və təzədən silahlandırılması davamlı prosesdir. Bu gün dünyanın əksər ölkələrinin orduları üçüncü nəsil hərbi texnikadan ibarətdir, halbuki indi beşinci, hətta altıncı nəsil silah nümunələri yaradılır. Ötən il Ukraynanın şərqindəki döyüşlər bunu əyani göstərdi: Ukrayna və Polşanın üçüncü nəsil tankları beşinci nəsil tank əleyhinə sistemlər vasitəsilə asanca məhv edildi. Analoji mənzərəni ötən ilin aprelində Dağlıq Qarabağda gördük: Azərbaycanın T-8O tankları ermənilərin T-68/72 tanklarının öhdəsindən asanca gəldi. Bu iki konflikt bir daha əyani şəkildə nümayiş etdirdi ki, bu gün döyüş meydanında əsgərin şücaəti və igidliyi yox , hərbi-texniki üstünlük qalib gəlir. Mənəvi-iradi faktor yalnız rəqiblər bərabər hərbi gücə malik olduqda əhəmiyyət daşıyır”.

**Ekspertin qənaətincə, hazırda Azərbaycan ordusu öz silahlı qüvvələrinin texniki-təchizat göstəricisinə görə bir çox dünya ölkələri ilə müqayisədə daha əlverişli vəziyyətdədir:** “Azərbaycanın siyasi və hərbi rəhbərliyi bu məsələyə daima ən ciddi diqqət yetirir, ordu üçün daima yeni silahlar alır. Buna görə də Azərbaycan hərbçiləri döyüş hazırlığı və təchizat səviyyəsinə görə ya zamanla ayaqlaşır, ya da 2-3 il geri qalır ki, bu da faciə deyil. Azərbaycan ordusu bütövlükdə dördüncü nəsil hərbi texnika ilə təchiz edilib. Bu səbəbdən öz qonşularını xeyli üstələyir. Ona görə də beşinci nəsil silahlanmaya keçmək üçün böyük maddi xərclərə və hərbi qulluqçulara total şəkildə təzədən təhsil verməyə lüzum yoxdur. Üçüncü nəsil silahlanmaya malik Ermənistan ordusu haqda isə bunu demək olmaz. Erməni ordusunun beşinci nəsil silahlardan istifadəyə keçməsi üçün təkcə bütün texnikanı dəyişmək yetərli deyil, eyni zamanda şəxsi heyət bütünlüklə təzədən öyrədilməlidir. Bunun üçün isə Ermənistanın nə vəsaiti, nə də vaxtı var. Hətta bunu edincə, Azərbaycan hərbçiləri altıncı nəsil silahlar alacaqlar - hansılar ki, artıq Rusiyada hazırlanmaqdadır”.

*****

Azərbaycan ordusunun döyüş ruhu və potensialı, Ermənistan ordusundan üstünlüyü özünü ötən ilin aprelindəki 4 günlük müharibədə əyani göstərdi. Həmin üstünlük hesabına cəmi bir neçə günə işğal altındakı ərazilərimizin 2000 hektarı düşməndən geri alındı.

**Əcnəbi hərbi ekspertlər səviyyəsində də etiraf edilən hərbi üstünlüyümüz, həmçinin aprel döyüşləri zamanı erməni tərəfinin qat-qat çox canlı və texniki itki verməsində özünü göztərdi. Hərçənd işğalçı ölkə rəsmiləri real itkilərini günü bu gün də gizlətməyə çalışırlar.**

**“Ermənistan Silahlı Qüvvələri hərbi tibb idarəsinin rəisi Kamavor Xaçatryanın ordularındakı yaralılar barədə verdiyi rəqəmlər obyektivliyi qətiyyən əks etdirmir”.** Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən şərhdə bildirilib. “Yalnız aprel hadisələri zamanı döyüşlərdə 320-dən artıq düşmən məhv edildi və 500-dən artıq erməni hərbi qulluqçusu yaralandı. Hətta bəzi erməni müstəqil hərbi ekspertləri də Azərbaycan tərəfinin səsləndirdiyi bu rəqəmlərin daha çox həqiqətə uyğun olduğunu çıxışlarında dolayısı ilə təsdiqləyiblər”, - deyə şərhdə vurğulanır.

“Hazırda aprel döyüşləri zamanı ağır yaralanan 150 nəfərədək erməni hərbi qulluqçusunun Ermənistanın müxtəlif hərbi tibb müəssisələrində və bir sıra xarici ölkələrdə müalicəsi davam edir. Onu da əlavə edək ki, cari ilin hələ sona çatmayan yanvar ayı ərzində Ermənistan silahlı qüvvələrinin itkilərinin sayı artıq 10 nəfəri keçib”, - deyə Müdafiə Nazirliyindən verilən açıqlamada qeyd edilib.

Əlbəttə ki, Ermənistan Dağlıq Qarabağ məsələsinə yanaşmasını konstruktivliyə doğru dəyişməsə, bu itkilər yüz, min dəfələrlə arta bilər. Böyük savaşı deyirik. Hərçənd, işğalçı ölkə indinin özündə həm də orduya çağırışçı problemi yaşayır.



## Daşaltı əməliyyatından 25 il ötdü

**Daşaltı kəndinin erməni silahlı birləşmələrindən təmizlənməsi məqsədilə keçirilən əməliyyatdan 25 il ötür. Bu əməliyyat hərb tariximizə I Qarabağ müharibəsində Azərbaycan ordusunun məğlubiyyətə uğraması ilə yanaşı, ordumuzun qəhrəmanlığı və şücaəti ilə də düşüb.**

Daşaltı əməliyyatı 1992-ci il yanvarın 25-də saat 20:00-da başlanıb, yanvarın 26-da gecə uğursuzluqla başa çatıb. Şuşa yaxınlığında yerləşən, Əsgəran rayonunun Daşaltı kəndinin erməni yaraqlılarından azad edilməsi məqsədilə keçirilən əməliyyata sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyev birbaşa rəhbərlik edib. Əməliyyatda yeni yaranmış Azərbaycan ordusunun könüllülərdən ibarət 3 bölüyü və Şuşa şəhərinin müdafiə taborunun döyüşçüləri iştirak ediblər. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və bələdçilərin xəyanəti nəticəsində Nəbilər kəndi istiqamətindən Daşaltına daxil olan Azərbaycan əsgərləri düşmənin pusqusuna düşərək öldürülüb. Kəndə daxil olmuş bir neçə taqım isə xeyli itki verərək geri çəkilə bilib.

Rəsmi məlumatlara görə, Daşaltı əməliyyatında Azərbaycan ordusu 90 nəfərdən artıq itki verib, bundan başqa, onlarla əsgər hələ də itkin düşmüş sayılır. Döyüşdə ermənilər də bir neçə texnika və 80-ə yaxın canlı qüvvə itiriblər.

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

# Monopoliya... müxalifətə görə ləğv olunmur, marketlərdə isə yeni bahalaşma

Vəziyyətdən alıcılar da narazıdır, satıcılar da; **iqtisadçı ekspert son durumu şərh edir:** "Bahalaşma ən azı marta kimi sürətlə gedəcək...."

**Son günlər bazar-dükanlarda ərzaq məhsulları sürətlə bahalaşır. Əgər əvvəllər bu artım 3-5 qəpik həcmində baş verirdisə, indi 40-50 qəpik, bəzi məhsullarda isə 1-2 manat civarındadır. Paytaxt ərazisindəki bir neçə marketə baş çəkərkən buna əminlik hasil etdik.**

Ən çox bahalaşan məhsullar sırasında gündəlik tələbat malları olan ət, yağ , qənd, çay, un, sabun, yuyucu tozlar, şampunlar diqqət çəkir. Belə ki, bir ay öncə 1.55-1.60 manata satılan 100 qramlıq çay paketlərinin qiyməti indi 1.90-2 manatdan aşağı deyil. Şəhər tozunun qiyməti 1.30-1.40 arasında dəyişir, bu isə 20 qəpik artım deməkdir. Duru yağların qiyməti də artıb. Bir litr "Final" markalı qarğıdalı yağının qiyməti müxtəlif marketlərdə 4.10-4.45 manat arasında dəyişir. Zellandiyadan idxal edilən kərə yağlarının qiyməti isə artıq 12-14 manat arasında dəyişir. Halbuki iki ay öncə bu yağların qiyməti 9-10 manat, bir il öncə isə 7 manat idi. 1 kiloqramlıq un paketlərinin qiyməti 1.20 manatdır. Çəki ilə 45 qəpiyə satılan unun qiyməti isə 55-60 qəpik arasında dəyişir.

Ət və ət məhsullarının qiyməti də əl yandırır. Marketlərdə sümüklü dana ətinin kiloqramı 10 manata, sümüksüz ətin kiloqramı isə 13-14 manata təklif olunur. Toyuq əti 3.80-4 manatadır. Kolbasaların kiloqramı isə 8-10 manat arasında dəyişir. Təmizlik vasitələrindən ən çox istifadə olunan markaların qiymətlərini də müqayisə etdik. Belə ki, əvvəl 1.55 manata satılan "Fairy" qab şampunu 2 manata, 60-70 qəpiklik sabunlar 90 qəpiyə qalxıb. 5.90 manata olan 1,6 kiloqramlıq "Ariel" yuyucu tozunun qiyməti isə 7.50 manatdır. Sözügedən bahalaşma ağartı məhsullarının, sərinləşdirici içkilərin, qənnadı məhsullarının, uşaqlar üçün istifadə olunan pampers, süni qidalar və digər məhsulların da qiymətində özünü göstərir. Qeyd edək ki, marketlərdə yerli şirkətlərin istehsalı olan məhsulların da qiyməti artıb.

**Həmsöhbət olduğumuz satıcılar bahalaşmanın səbəbini dolların məzənnəsinin sürətlə qalxması ilə əlaqələndirdilər:** "Gördüyünüz malların 70 faizi dollarla xaricdən alınır. Bu vəziyyət bizim də işimizi çətinləşdirir. Malı gətirən şirkətlər hər dəfə yeni qiymətlə gəlir. Demək olar ki, hər gün qiymətləri dəyişdirməli oluruq".

Alıcıların narazılığı da özünü gözlətmir. 5 nəfərlik bir ailəni dolandırdığını deyən Seyfulla Məmmədov əvvəllər 50 manatla ailənin bir həftəlik bütün ehtiyaclarını ödədiyini, indi isə bu məbləğlə sadəcə 4-5 növ ərzaq məhsulu aldığını deyir: "Bu gün 70 manat xərclədim, hələ çox şey ala bilmədim. Heç 3 günlük ehtiyacımızı ödəməyəcək".









Bazarlarda yaşanan hazırkı duruma münasibət bildirən iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, birinci səbəb dollar-manat arasındakı durmadan artan məzənnə fərqidir: "Bizim yerli istehsal adı altında istehlak etdiyimiz məhsulların xammalı xaricdən gətirilir. Təqribən 90 faiz xammal idxal olunur. Dolların məzənnəsinin artması, bundan başqa, alış və satış qiymətləri arasındakı fərqin də kifayət qədər böyük olması bahalaşmaya səbəb olur. Çünki iş adamları xaricdən gətirdikləri malın pulunu ödəyərkən rəsmi məzənnə ilə deyil, dolların alış pulu ilə hesablayırlar. İş adamları hazırda dolları 1.97-yə alırlar, bu isə ilin əvvəli ilə müqayisədə 11 faiz artım deməkdir. Məhz buna görə də qiyməti formalaşdırarkən məzənnə fərqini, eləcə də gözlənti fərqini də üzərinə qoyurlar. İş adamları artıq ölkədəki vəziyyəti, manatın sürətlə ucuzlaşdığını görür, özlərini sığortalamaq üçün gözlədikləri məzənnə fərqini də üzərinə qoyurlar. Səbəblərdən biri də odur ki, idxal əməliyyatları ilə məşğul olan oyunçuların sayı da ciddi şəkildə azalıb. Bazarda vəziyyət gərginləşdikcə xırda oyunçular bazarı tərk etmək məcburiyyətində qalıb. Bazarda yalnız iri oyunçular qalıb ki, bu da rəqabətli mühitə çox pis təsir edir. Üçüncü önəmli faktor isə ötən ilin sonunda kommunal xidmətlərin, qazın və elektrikin qiymətinin qalxması oldu. Bu da istehsal xərclərinin artmasına səbəb olur və qiymət artımının sürətinə də təsir göstərir. Bahalaşmanın ən azı mart ayına kimi daha sürətlə gedəcəyi gözlənilir".

**Məlum olduğu kimi, bahalaşmanın səbəblərindən biri də monopoliyadır. Bəzi ekspertlər iddia edir ki, hökumət monopoliyanın olmasında maraqlıdır və bunun siyasi səbəbləri var. Çünki hazırkı monopolistlər hökumətə yaxınlığı ilə seçilən və ya hökumətdə təmsil olunan insanlardır. Bu fikirləri dəyərləndirən Natiq Cəfərli monopoliyanın var olmasında siyasi səbəblərin də istisna olmadığını dedi:** "Böyük mənada bu yanaşma doğrudur. Biznesin azad olması son nəticədə siyasi azadlıqların da genişlənməsinə gətirib çıxarır. Bu, bir çox ölkələrin tarixi təcrübəsində də sübut olunub. Ancaq hazırda ölkədə monopoliya ləğv olunsa belə, manatın məzənnəsinin bu cür oynaması xırda sahibkarların məcburi şəkildə sıradan çıxmasına səbəb olur. İdxal əməliyyatları artıq onlara sərf eləmir. İş adamları dekabr ayında gətirdikləri malı 1.76 kursu ilə ticarət şəbəkəsinə veriblərsə, artıq indi xeyli zərər ediblər. Bu mənada kiçik sahibkarlar bazara çıxmağa məcbur olur. Yalnız iri sahibkarlar bazarda qala bilir. Siyasi səbəblərlə yanaşı, iqtisadi səbəblər də inhisarçılığın çiçəklənməsinə səbəb olur. Hökumət ciddi şəkildə vergi və gömrük güzəştləri etməsə, vəziyyət daha da pisləşəcək".

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar müəllifindir**

# Dollardan manata daha bir "kəllə"...

Ekspertlər manatın sabitləşməsinin mümkünlüyünü bildirir, ancaq...

**Milli valyuta olan manat sürətlə ucuzlaşır. Mərkəzi Bank artıq son hərraclarda dolların məzənnəsini ciddi şəkildə qaldırır. Bir müddət əvvəl Dövlət Neft Fondu tərəfindən Mərkəzi Banka 7,5 milyard manatlıq transfer barədə xəbərlər yayılsa da, hələ ki Mərkəzi Bank həmin vəsaiti necə xərcləyəcəyini açıqlamayıb. Ekspertlər bildirirlər ki, həmin vəsait hərraclara çıxarılarsa, bankların dollara tələbatı tam, yaxud qismən ödənilə bilər. Əks halda, manat ucuzlaşmaqda davam edəcək.**



**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, 7,5 milyardın nə zaman hərraclara çıxarılacağını demək çətindir: "Dövlət Neft Fondu həmin vəsaiti Mərkəzi Banka transfer etməlidir. Amma Mərkəzi Bank həmin pulu hərraclarda istifadə edəcək, ya etməyəcək, bunu söyləmək çətindir. Əslində burada əsas məqsəd makroiqtisadi sabitliyin qorunmasıdır. Maliyyə sabitliyinin qorunması üçün ayrılan vəsaitdir. Bu da birbaşa manatın, milli valyutanın məzənnəsi ilə bağlıdır. Mərkəzi Bank onu hansı məqsədlə istifadə edəcək, bunu da demək çətindir. Mərkəzi Bankın hazırda manatın məzənnəsinin stabilləşməsi, ən azı cari vəziyyət üçün kifayət qədər maliyyə resursları var. Amma hələlik bu pul hərraclara çıxarılmır. Səbəbləri maliyyə ilinin yeni başlaması ilə bağlı ola bilər. Mərkəzi Bank tərəfindən bununla bağlı hər hansı bir açıqlama yoxdur. Amma bütövlükdə il ərzində bir milyard dollar xaricdən gözlənilən vəsaitlər var, qeyri-neft ixracatı var. O baxımdan, Mərkəzi Bank əslində mövcud resursları hərraca çıxararsa, o zaman tələbatın əhəmiyyətli hissəsini qarşılaya bilər. Son hərrac göstərdi ki, dollara tələbat qarşılanmır. Tam qarşılanmadığı halda da, manatın dollara nisbətən dəyəri azalır. Reallıq bundan ibarətdir ki, ya hələlik transfer olmayıb, ya da Mərkəzi Bank həmin vəsaitləri hərraca çıxarmağa tələsmir. Növbəti dövrlərdə məzənnənin necə dəyişməsi sanki birbaşa Mərkəzi Bankın hansı siyasəti həyata keçirməsindən asılı olacaq. Fikirlər var ki, Mərkəzi Bank bir dollar iki manata bərabər olan məzənnəni hədəfləyərək, sonra vəziyyəti nizamlamaq niyyətindədir. Mərkəzi Bank dollarla bağlı tələbi ən azı tarazlaşdıra bilər. MB transfer üçün nəzərdə tutulan vəsaiti optimal şəkildə, mərhələli olaraq hərraca çıxarmayacaqsa, o zaman yenə tələbin ödənilməsindəki çətinlik qalacaq. Dollara olan tələb tam ödənilməyəcək. Dövlət Neft Fondundan Mərkəzi Bank üçün ayrılan transferlərin hərrac vasitəsilə satılmasına ehtiyac var ki, hərraclar vasitəsilə artıq həmin xarici valyuta kütləsi bazara daxil olsun".

**Qeyd edək ki, neftin də dünya birjalarında bir barelinin 55 dollar ətrafında olduğunu nəzərə alsaq, Azərbaycan manatının sürətlə dəyər itirməsi təəccüb doğurur. Deputat Vahid Əhmədov qaynar.info-ya açıqlamasında bildirib ki, Azərbaycan manatının arxasında duran əsas neft və qazdır:** "Bunların vasitəsilə Azərbaycana dollar idxal edirik. Son vaxtlar neftin ixracında müəyyən kvotalar, azalmalar var. Neftin qiyməti də elə yüksək deyil. Manatı saxlayan iki əsas amil var. Birincisi neftin qiymətidir. İkincisi isə idxal-ixrac əməliyyatlarıdır. Yəni tələb-təklif arasında olan proseslərdir. Bizdən fərqli olaraq Rusiyada, Qazaxıstanda çoxdan tələb və təklif eyniləşdirilib. Onların milli valyutasının məzənnəsini də bazar müəyyən edir. Bizdə də 2016-cı ildən etibarən idxalda müəyyən proseslər getdi. İdxalı azaltmağa başladılar. Ötən ilə nisbətən azaldı".

**Deputat bildirib ki, bütün bunlara baxmayaraq manat hələ bazar qiymətini almayıb:** "Ona görə də manatın ucuzlaşması davam edir. Manata çox pul xərcləməyin əhəmiyyəti yoxdur. Gec-tez bazar qiymətini tapmalıdır. Strateji yol xəritəsində də qəbul olunub ki, 2017-ci ildən manat tam üzən məzənnə siyasətinə keçəcək. Bu proses o vaxta qədər davam edəcək ki, idxal-ixrac prosesində, neftin qiymətində, tələb təklifdə müəyyən müsbət halqa yaransın".

**Vahid Əhmədov qeyd edib ki, yaxın iki ay müddətində məzənnənin 2 manat olacağı gözlənilir:** "Hələlik manata Mərkəzi Bank tərəfindən müəyyən müdaxilələr var. Amma axıra qədər də müdaxilə etmək mümkün deyil. Yumşaq devalvasiya gedir. Bunu belə aparacaqlar ki, ciddi təsir hiss olunmasın".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

**Beynəlxalq "Transparency İnternational" təşkilatı illik Korrupsiyanı Qavrama İndeksini açıqlayıb. Sənədə görə, Azərbaycan yenə Qafqazın "korrupsiya çempionu"dur. Qafqazdakı qonşulardan Ermənistan 33 xalla 113-cü, Gürcüstansa 57 xalla 44-cü yerdədir. 2015-ci ildəki 119-cu yerdən 123-cü sıraya geriləyən Azərbaycan cəmi 30 xalla Cibuti, Syerra-Leone, Laos, Honduras, Paraqvay, Meksika və Moldova ilə eyni cərgəyə yerləşib. Yerli ekspertlərin məsələyə münasibəti birmənalı deyil.**

# "Transparency İnternational" korrupsiyada bizi niyə "lider" edir?

## Vüqar Bayramov: "Korrupsiyaya qarşı mübarizə nə bir ayın, nə bir ilin işidir"

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, Azərbaycanda korrupsiyanın təsnifləşdirilməsi doğru-düzgün aparılmayıb: "Yəni məişət səviyyəsində olan korrupsiyanın həllində müəyyən addımlar atıldı. Aşağı səviyyəli, məişət korrupsiyasının leqallaşmasına, daha sivil qaydaya keçməsinə və ödənişli şəkildə insanlara xidmət göstərilməsinə xidmət etdi. Bu mənada məişət korrupsiyasında müəyyən irəliləyişlər oldu. Amma bizdə açıq problem müxtəlif hesabatlarda və indikatorlarda büdcənin, büdcə xərclərinin şəffaf olmamasıdır, büdcənin xərclənməsi ilə bağlı hesabatlılığın aşağı səviyyədə olmasıdır. Məhkəmə sistemi olsun, hüquq-mühafizə orqanları olsun, burada da hətta davam edən məhkəmə işləri də göstərdi ki, ölkədə bu sahədə ciddi problemlər olub. Bu anlamda iki önəmli istiqamət- büdcə xərcləmələri üzrə, bir də hüquq-mühafizə və məhkəmə orqanları üzrə ciddi irəliləyişə nail olmadığımıza görə bu tipli hesabatlarda çox geriləyib. Əsas məsələ budur. Bizdə məişət rüşvəti ilə, məişət korrupsiyası ilə sistemli korrupsiyanı bir-birindən ayıra birmirlər. Məişət korrupsiyasında müəyyən irəliləyiş olsa da, sistemdaxili korrupsiyada ciddi nailiyyətlərə imza ata bilməmişik".

**Ekspert Vüqar Bayramov isə məsələ ilə bağlı musavat.com-a açıqlamasında deyib ki, burada metodologiyaya nəzər yetirmək lazımdır:** "Biz ötən ilin yekunlarını qiymətləndirsək, etiraf etmək lazımdır ki, korrupsiya səviyyəsi əvvəlki illə müqayisədə müəyyən qədər azalıb. Gömrükdə liberallaşma həyata keçirilib, 2016-cı ildə bəzi fəaliyyətlərə icazə verilməsi, lisensiyaların asanlaşdırılması halları baş verib. Sahibkarlar uzun müddət lisenziya almaq üçün rüşvət ödəmək məcburiyyətində qalırdılar. Amma bununla bağlı lisenziya ləğv olundu. Bir sıra digər fəaliyyətlər üçün də lisenziya asanlaşdı və müddətsiz lisenziya tətbiq olundu. Əvvəllər müddət beş il idi. Eyni zamanda gömrükdə liberallaşma, korrupsiyanın azaldılması halları var. Məsələyə müstəqil yanaşsaq, hər hansı real addımlar atılır, bunun da etiraf edilməsinə ehtiyac var. Həmin indeksdə nə üçün Azərbaycan geriləyib, bunu tapmaq lazımdır. Məncə, onun səbəbi həmin hesabatda korrupsiyanın qavrama səviyyəsinin metodologiyası ilə bağlıdır. Çünki metodologiyaya uyğun olaraq qiymətləndirmə aparılır. Amma bütövlükdə biz 2016-cı ili qiymətlnəndirsək, 2015-ci illə müqayisədə bir sıra addımlar atılıb. Korrupsiyaya qarşı mübarizə nə bir ilin, nə bir ayın işidir, uzunmüddətli, davamlı aparılmalıdır. Növbəti dövrlərdə də mübarizənin davam etdirilməsinə ehtiyac var. Amma nəzərə alsaq ki, artıq beynəlxalq hesabatların metodologiyasının öyrənilməsinə, orada Azərbaycanın geriləmə səbəblərinin araşdırılmasına ehtiyac var. Həmin səbəblər həm də konkret istiqamətlərdə korrupsiyaya qarşı mübarizənin aparılması ilə bağlı bir növ mesaj verəcək. Artıq baxmayaraq ki, siyasi metodologiyadır, reallığı əks etdirmir, hər bir indeks, hər bir hesabat həm də müqayisə üçün, islahatlar üçün vacibdir. Düşünürəm ki, 2016-cı illə müqayisədə korrupsiyaya qarşı mübarizədə müəyyən addımlar atılacaq. Amma yenə də hesabatın metodologiyasına, eyni zamanda yerdəyişmənin səbəblərinin öyrənilməsinə, bu istiqamətdə addımların ayılmasına ehtiyac var".



Korrupsiya ilə Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov "Transparency İnternational" təşkilatının açıqladığı sənəddəki bəzi fikirlərlə razılaşmır. O, Azərbaycanın Cənubi Qafqazda "ən korrupsioner" ölkə kimi tanıdılmasına etiraz edir. V.Mövsümovun fikrincə, Gürcüstanda "məişət korrupsiyası" ilə mübarizə aparılsa da, "elit korrupsiya" daha yüksəkdir, özəlliklə prezident Mixail Saakaşvilinin hakimiyyətindən sonra. Ermənistana gəlincə, fondun icraçı direktoru deyir ki, bu ölkədə korrupsiyanın səviyyəsi Azərbaycandan heç də yaxşı deyil, ikincisi, "iqtisadi inkişaf olan yerdə korrupsiya ilə mübarizəyə şərait yaradılır. Bu baxımdan, Azərbaycanda iqtisadi inkişaf daha yüksəkdir". (azadlıq.org)

**V.Mövsümovun sözlərinə görə, Azərbaycanda son illər "məişət korrupsiyası"nın aradan qaldırılması istiqamətində "çox güclü addım" atılıb- "ASAN-xidmət" yaradılıb:** "Bunun səmərəsini əhali də görür. Demək olar ki, aşağı səviyyədə korrupsiya yoxdur. İkincisi, təhsil sistemində ictimai nəzarət mexanizmi təşkil olunub, bu sistemdə şəffaflaşdırma gedir. Azərbaycanda ən çox şikayət də təhsil və səhiyyə sistemindəndir". **V.Mövsümov təhsildən fərqli olaraq, səhiyyədə hələlik korrupsiya ilə mübarizənin səmərə vermədiyini bildirir:** "Amma son illər dövlətin səhiyyə sisteminə dəstəyi, ayrılan vəsait onu göstərir ki, yaxınlarda burda da vəziyyəti düzəltmək imkanı olacaq. Səhiyyədə problemlər daha çoxdur, daha çox diqqət ayrılmalıdır. Dövlət xəstəxanalarında baş verənlər, narazılıqlar, rüşvət alınması bu sahədə çox işlər görülməli olduğunu göstərir". Fondun icraçı direktoru "məişət korrupsiyası" ilə mübarizənin effektli olduğunu deyir, bəs "yuxarı səviyyələrdə" bu mübarizə necə aparılır? V.Mövsümovun qənaətincə, külli miqdarda dövlət vəsaitinin mənimsənməsi üzündən ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyində, yaxud Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki həbslər dövlətin bu yöndə siyasi iradəsini ortaya qoyur.

❑ **Röya RƏFİYEVA**

# Lapşinə hökm çıxarıldı: Bakıya verilsin!

**Minsk Şəhər Məhkəməsi İsrail vətəndaşlığı daşıyan rusiyalı blogger Aleksandr Lapşinin Azərbaycana ekstradisiyasına dair Belarus Baş Prokurorluğunun çıxardığı qərarı qüvvədə saxlayıb.**



Aleksandr Lapşin

Virtualaz.org "RİA Novosti"yə istinadən xəbər verir ki, hakim Lyubov Simaxina vəkillərin qərardan verdiyi şikayəti təmin etməyib. Məhkəmə qapalı keçirilib, Rusiya və İsrail diplomatları, jurnalistlər ancaq hökmün elan edilməsi zamanı zala buraxılıb.

Xatırladaq ki, Lapşin Azərbaycanın işğal altındakı ərazilərinə qanunsuz səyahət etdiyinə və ölkənin ərazi bütövlüyünə qarşı açıq çağırışlara görə axtarışa verilib. Ötən ilin dekabrında onu Minskdə həbs ediblər. Lapşinin məsələsi ətrafında böyük hay-küy qalxıb. Ermənistan bloggerin həbsindən və onun Azərbaycana ekstradisiyasına dair qərardan möhkəm narahatdır, bunun başqaları üçün də presedent olacağını nəzərə alır və bütün imkanları ilə Lapşini xilas etməyə çalışır. Rusiya XİN rəhbəri Sergey Lavrov da Lapşinin həbsinə və Azərbaycana ekstradisiyasına qarşı çıxıb. İsrail XİN isə Azərbaycan tərəfi ilə danışıqlar aparır ki, bloggerin rəsmi üzr istəməsinin əvəzində onun təqib olunması dayandırılsın.

Lakin göründüyü kimi, Belarus məhkəməsi Lapşinin ekstradisiyasına dair qərarı qüvvədə saxlayıb.

# Beynəlxalq Bankı talayan keçmiş oliqarx məhkəmə qarşısında

## Dünyamin Xəlilovun və digərlərinin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirildi

**Yanvarın 26-da Bakı Ağır Cinayətlər Məhkəməsində sabiq deputat Dünyamin Xəlilovun və digərlərinin cinayət işi üzrə məhkəmənin hazırlıq iclası başlayıb.**



Dünyamin Xəlilov

Müsavat.com-un xəbərinə görə, məhkəmə hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilib.

Prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Zərərçəkmiş qismində Beynəlxaq Bank və "Aqrarkredit Bank" ASC tanınıb. Məhkəmənin baxış iclası fevralın 2-nə təyin edilib.

Sabiq deputat "Beynəlxaq Bank əməliyatı" zamanı həbs edilən şəxslərdəndir. Bankın İdarə Heyətinin sabiq sədri olmuş Cahangir Hacıyevdən sonra Xəlilov da digərləri ilə birlikdə həbs edilmişdi.

Sabiq deputat mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vergi ödəməkdən yayınma kimi cinayətlərdə ittiham olunur.

Xəlilov sabiq deputat olmaqla yanaşı, həm də iş adamıdır. O, "Globus Plaza"nın sahibidir.

Xatırladaq ki, D.Xəlilovun Beynəlxalq Banka borcu ilə bağlı qalmaqal 2011-ci ildə başlayıb. O, 2005-ci ildə Beynəlxalq Bankın səhmdarı olub.

2005-2010-cu illərdə deputat olan D.Xəlilov Cahangir Hacıyevin qohumudur və işçisi olub. C.Hacıyevə məxsus "Şəki Bazar" və "Şəki Ət Kombinatı" ASC-ni uzun müddət D.Xəlilov idarə edib. Beynəlxalq Bankın bir filialı uzun illər "Globus Plaza"nın üçüncü mərtəbəsində yerləşib.

Onu da qeyd edək ki, "Globus Plaza"nın sahibi olan D.Xəlilov və digərləri ümumilikdə 50 milyon manat mənimsəmədə təqsirli bilinirlər. Həmin şəxslər ötən ilin fevral ayında Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdiyi əməliyyat zamanı saxlanılaraq, Nərimanov Rayon Məhkəməsinin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, ötən il "Azərbaycan Beynəlxalq Bankı"nın keçmiş sədri Cahangir Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il müddətinə azadlıqdan məhrum edilib.

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017

# Ölümlə nəticələnən qəzanın müəmmalı sonluğu

## Səbəbkarı yox, şahidi tutdular

**2015-ci ilin yayında Masazır duz gölü yaxınlığında baş vermiş ağır yol nəqliyyat hadisəsinin qəribə sonluğu var. Belə ki, ölümlə nəticələnən qəzaya səbəb 1964-cü il təvəllüdlü Səadət Hüseynova olsa da, Abşeron rayon Məhkəməsində aparılan proses zamanı o, zərərçəkmiş qismində göstərilib. Onun əvəzində əsl səbəbkar kimi Əzizbala Mehdiyevin günahkar olduğu bildirilib.**

Avtoqəza zamanı bir nəfər həlak olub. Qəza zamanı Səadət Hüseynovanın idarə etdiyi “Nissan” markalı avtomobildə videoregistrator olub. Həmin görüntülərdə yolun sağ zolağı ilə hərəkət edən S.Hüseynovanın ötmə əməliyyatı zamanı idarəetməni itirərək qarşı yola çıxdığı, nəticədə əks istiqamətdə gələn “Mercedes” markalı avtomobilə çırpıldığı əks olunur. Diqqətçəkən məqamlardan biri də odur ki, videoda S. Hüseynovanın ötmə əməliyyatı anında yolun sol zolağında hərəkət edən “KİA” markalı avtomobili idarə edən Ə. Məmmədovun sağa, yəni öz zolağına tərəf keçməsi əks olunur.

Videogörüntüdə avtomobillərin bir-birinə toxunuşu sezilmir. Bu zaman idarəetməni itirən S. Hüseynova qəza törədir. Özü isə şok keçirib. Maraqlı məqam odur ki, hadisədən sonra şahid qismində Ə.Məmmədovu çağırıb, ifadəsini alıb, buraxıblar. Lakin 4 aydan sonra onu məsuliyyətə cəlb ediblər. Hadisə yerindən qaçma maddəsi isə bir ay keçdikdən sonra işə əlavə edilib. “Mercedes” markalı avtomobilin sürücüsünün ölümünə səbəb olan Səadət Hüseynova zərərçəkən qismində buraxılıb.

**Musavat.com-a danışan Əzizbala Məmmədovun vəkili Ramin Məmmədzadə vəziyyəti belə izah etdi:** “Qəza baş verdikdən sonra Əzizbala Məmmədov avtomobilindən düşərək, yaralılara köməklik edib. Ətrafdakıların köməyi ilə hadisə yerinə təcili tibbi yardım çağırıb. O, hadisə yerində olan zaman kənardan qəzanı görüntüyə alan şəxslər də





olub. Yəni onun qəza zamanı hadisə yerindən qaçmadığı aydındır. Halbuki bunu heç kəs sübut edə bilmir. Yolun sonunda olan kameralara baxılmayıb, baxılsa, ”KİA"nın oradan nə vaxt keçdiyi bilinərdi. Həmçinin heç bir şahid dindirilməyib, işə aidiyyəti olmayan bir neçə polis əməkdaşı olan şahidlər var. Həmçinin hadisə yerində həvəskar çəkiliş olan videogörüntülərin də olmasına baxmayaraq, görüntülərin uzaq məsafədən çəkildiyini səbəb gətirərək onu maddi sübut kimi qəbul etmədilər.

Bunu təsdiq etmək üçün istənilən qədər dəlil var. Təəssüf ki, işin gedişatına təsir etmədiyini bildirirlər. Buna baxmayaraq, ağır yol hadisəsini törətməkdə və hadisə yerindən qaçmaqda ittiham olunan 1990-cı il təvəllüdlü Məmmədov Əzizbala Hənifə oğlu baş vermiş qəzada təqsirli bilindi. Lakin M. Əzizbala qəzanın əsl səbəbkarı 1964-cü il təvəllüdlü Hüseynova Səadət Orucəli qızının olduğunu deyir. Həmin şəxs müstəntiq tərəfindən məsuliyyətdən yayındırmaq məqsədi ilə işə zərərçəkmiş şəxs qismində cəlb edilib".

Vəkilin sözlərinə görə, istintaq işinin içində olan videogörüntüdən də açıq-aydın görünür ki, qəza baş verən an ittiham edilən şəxsin idarə etdiyi “KİA”markalı avtomobil onu ötmək istəyən “Nissan”dan öndədir. Görüntü “Nissan”nın ön şüşəsinə bərkidilmiş “videoregistrator”dan götürülüb və qəzanın başvermə anında “KİA”nın görüntüdə olması onun öndə olmasını sübut edir.

Bundan əlavə, qəza iyul ayının 9-da baş verir. İstintaq beş aydan sonra icraatı təqsirli şəxsin müəyyən olunmaması səbəbindən dayandırır. Müstəntiq bir günün içərisində (14 noyabr) Əzizbalanı təqsirli şəxs hesab edir, həm onu cinayət işinin bütün materialları ilə tanış edir, həm də prosesi sonlandırıb məhkəməyə göndərir. Bütün bu proses bir gündə baş verir.

Vəkil “Yeni Müsavat”a danışarkən R. Məmmədzadə istintaqın gedişatı zamanı ekspertlərin verdikləri rəylər bir-birinə zidd olduğunu dedi.

**Vəkil İ.Əliyev bu toqquşmanın da əsassız olduğunu və bunun mümkünsüzlüyünü sübut edən iki əsaslı faktın olduğunu deyir:** “Videogörüntüdən də aydın görünür ki, maşınlar arasında kifayət qədər məsafə var. Əgər ikinci rəydə deyildiyi kimi, təkər diskinin onu yandan ötmək istəyən maşına dəyməsi mümkün olsaydı, o zaman əvvəlcə maşınların səthi bir-birinə dəyməli idi.

Maraqlıdır ki, qeyd olunanları ekspertlərin özləri də məhkəmə ifadələrində təsdiq ediblər, buna rəğmən rəydə yazılanlarında səhv olmasını da qəbul etmirlər, baxmayaraq ki, bunlar bir-birinə zidd ifadələrdir. Təəssüf ki, bu ziddiyyətlər belə nə prokurorun, nə də hakimin qərarına təsir etmədi".

**Vəkil R. Məmmədzadə avtoekspertiza zamanı müstəntiq tərəfindən saxtakarlığa yol verildiyini bildirdi:** “Prokuror günahsız bir adama 7-8 il iş istəyir. Bütün aidiyyəti instansiyalardan xahiş edirik ki, bu məsələyə yenidən baxılsın. İstintaqın gedişatında olan qaranlıq məqamlara aydınlıq gətirilsin”.

❑ **Məğrur MƏRD**
**Fotolar müəllifindir**



# Baş Gömrük İdarəsinin rəhbər şəxslərindən biri məhkəmə zalında həbs edildi

## Neman Abbasov 9 il müddətinə azadlıqdan məhrum edilib, zamində olan Adil Kazımov məhkəmə zalında qandallanıb

**Heydər Əliyev adına Beynəlxalq Hava Limanından qanunsuz yolla qızıl-ziynət əşyaları keçirməkdə təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərə hökm oxunub.**

Musavat.com xəbər verir ki, bu iş üzrə 6 nəfər təqsirləndirilirdi. Onlardan biri Türkmənistan vətəndaşı, 5-i isə Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşlarının 4-ü Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşlarıdır.

Bu iş üzrə günahlandırılanlar Türkmənistan vətəndaşı Baylyyev Amanmuhammed, Dövlət Gömrük Komitəsinin (DGK) Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin digər əməkdaşları Adil Kazımov, Aytəkin Tağıyeva, Muxtar Qasımov və qızıl alverçisi Ziyafət Qurbanovadır.

İttihama görə, DGK-nın inspektoru Neman Abbasov qabaqcadan digər şəxslərlə əlbir olaraq ümumi dəyəri 285 min manat olan qızıl-zinət əşyalarını qanunsuz yolla hava limanından keçirməyə cəhd ediblər. İttiham aktında bildirilir ki, Neman Abbasov qızıl alverçisi Ziyafət Qurbanovadan qızılları təyyarəyə keçirmək üçün 2200 dollar rüşvət alıb. N.Abbasov digərləri ilə əlbir olaraq qızılları qanunsuz yolla hava limanı binasından keçirərək tualetdə Türkmənistan vətəndaşına vermək istəyiblər.

Bu iş üzrə təqsirləndirilən şəxslərdən ikisi - Neman Abbasov və Baylyyev Amanmuhammed həbs edilsə də, digərləri zamində idi. Həbs edilənlərdən yalnız Neman Abbasov günahını etiraf edib. O, bu əməli ehtiyac üzündən etdiyini və digər şəxslərin bundan xəbərsiz olduğunu söyləmişdi.

Yanvarın 26-da keçirilən məhkəmədə hökm elan edilib. Hökmə əsasən Türkmənistan vətəndaşı olan Aman Muhamməd Baylyyev məhkəmə zalından azadlığa buraxılıb. O, 1 il sınaq müddəti təyin edilməklə, 6 il şərti cəzaya məhkum edilib.

Gömrük Komitəsinin əməkdaşı olan Neman Abbasov 9 il müddətinə azadlıqdan məhrum edilib. Zamində olan komitə əməkdaşı, Neman Abbasovun rəisi olmuş Adil Kazımov məhkəmə zalında həbs edilib. Digər komitə əməkdaşı Muxtar Qasımov da məhkəmə zalında həbs edilib və onların hər biri 8 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər.

Dövlət Gömrük Komitəsinin əməkdaşı olan Aytəkin Tağıyeva şərti cəzaya məhkum edilib. Qızıl alverçisi Ziyafət Qurbanova da şərti cəza alıb. Belə ki, məhkəmə onların hər birinə 6 il şərti cəza təyin edib.

Qeyd edək ki, onlara Cinayət Məcəlləsinin 312-ci (rüşvət vermə) və 206-cı (qaçaqmalçılıq) maddələri ilə ittiham irəli sürülüb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarıın dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

YENİ MÜSAVAT
N 18 (6632) 27 yanvar 2017




# Allah niyə pəhrizkarları sevir?

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bəhsimiz Allahın insana olan məhəbbəti, sevgisi mövzusundadır. Necə bəhsdir ki, bu mövzularda danışırıq. Bizə bir mühüm həqiqəti unutdurublar və biz qəflət etmişik ki, Allah öz bəndələrini sevir. Sevgisi fövqəl dərəcədədir. Hətta, büdrəyən, günah edən bəndələrə də sevgisi var. Onlara xəbər göndərir ki, ümidlərini Allahın rəhmətindən üzməsinlər.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

### Qurani-Kərimdə Allahın sevgisini bəyan etdiyi kəslər

Ötən bəhsimizdə Allahın səbir edənlərə olan sevgisindən danışdıq. Qeyd etdik ki, Allah Təala Qurani-Kərimdə səbir edənləri sevməsini bəyan edir. Bu bəhsimizdə Allah Təalanın sevgisi, xüsusi məhəbbəti olan növbəti qrup insanlar - təqvalılar barədə danışacağıq. Qurani-Kərimdə müxtəlif yerlərdə, müxtəlif buyuruşlarda Allah Təala təqvalılara, müttəqilərə öz sevgisini bəyan edir. Qurani-Kərimdə "Tövbə" surəsində bir neçə dəfə buyurulur: **"Həqiqətən Allah Təala təqvalıları sevir".** Eyni zamanda "Ali-İmran" surəsinin 76-cı ayəsində Rəbbimiz buyurur: **"Şübhəsiz, Allah Təala təqvalıları sevir".** Biz görürük ki, Rəbbimiz bu həqiqəti, bu mövzunu, təqvalıları, təqvalılığı sevməsini bəyan edir.

### Təqva nədir?

Təqva - çox ciddi mövzulardan biridir. Təəssüflər olsun ki, Sovet dövründə gündəlik dilimizdə faktiki olaraq çox az istifadə olunmağa başlanmışdı. Hətta tərcümələrdə də təqvalı, müttəqi, təqva sözləri az çatdırılırdı. Amma şükürlər olsun ki, bir neçə on ilə təqva sözü də artıq həm inanclı mühitinin dilində oturuşmağa başladı, həm toplum anlamağa başladı. Müttəqi, təqva sözləri artıq dilimizdə də Qurani-Kərim terminolojisi olaraq tam istifadə edilməyə başlayıb. Bu sözü "qorxanlar", "pəhriz edənlər" olaraq tərcümə edərkən, Qurani-Kərimdə olan bütün o mənəvi yükü çatdırmaq mümkün olmur, bu anlayışın bir hissəsi, bir çaları çatdırılır. Bəzən də sui-istifadələrə, kimlərinsə yanlış nəticələndirmələrinə gətirib çıxardır. Ona görə də ilk olaraq təqva sözününün özünün mənasına toxunmaq - mühüm və əhəmiyyətlidir.

Allah Təala Qurani-Kərimdə buyurur ki, müttəqiləri, təqvaya riayət edənləri sevir. Burada adı keçən təqva insanda olan xüsusi bir haldır. Əxlaq ustadları bu halla bağlı verdikləri izah və açılımda bildirirlər ki, bu, bir İlahi xofdur. Bu, bir ürkək qorxudur ki, "günahlar edərəm - Allahın hüzurunda itirərəm" və ya "itaət etmərəm - acı aqibətlərə tərəf gedib çıxaram" kimi bazisə əsaslanır. Bu cür bir nurani anlayışdır. İnsanda olan elə bir mənəvi halətdir ki, insan o mənəvi halətə malik olsa, İlahi itaətə tərəf hərəkət edər. İnsanda o mənəvi halət olmasa, insan heç bir nailiyyət əldə etməz. Belə halda insan etdiyinin fərqində olmur, qəflətdə olur, quru-quru dünya həyatını yaşamış olur. Amma o mənəvi haləti olsa, Allah bəyənən işlərə tərəf, Allaha itaətə tərəf can atar və səy edər, çalışar ki, günahdan uzaq olsun. Bunun bünövrəsində həmin o İlahi xof, Allahdan çəkinmə durur və bu, insanda onu Allaha bəndəliyə tərəf yönəldən halın olmasına tərəf gətirib çıxarır, bununla insan günahdan çəkinir.

### Həzrət Əli (ə) təqvanın üç mühüm xüsusiyyətini çatdırır

Təqva ilə bağlı bir neçə önəmli xüsusiyyətə toxunmaq olduqca zəruridir. Təqva elə bir haldır ki, həm niyyətlə bağlantısı var, həm bizim hər mənada arzularımızla bağlıdır, həm də bizim əməllərimiz və yaranan fürsətlərimizlə bağlıdır. Həzrət Əmirəlmöminin (ə) bizlərə mühüm bir həqiqəti çatdırır. Təqvalılarda olması zəruri olan üç əlamətdən söz açır. **"Təqvalı insanın üç mühüm əlaməti var. Təqvalı insanın:**

**əməllərində ixlas olar,**

**arzuları qısa olar,**

**əfürsətlər qənimət bilinər".**

Buyuruşdan da göründüyü kimi, təqvanın birinci şərti - əməllə bağlıdır. Əməldə ixlas - təqvanın birinci dərəcəli göstəricisidir. Təqvalı insanın həyata keçirdiyi bütün əməllər yalnız Allah üçün olar. Əgər əmələ qatqı olsa, insanların fikirləri, düşüncələri, insanlara görə olan səbəblər də qatılsa, bu əməl ixlaslı durumdan çıxmış olar və bununla da təqva halı aradan gedər. Təqvanın ən önəmli xüsusiyyəti budur ki, əməl ixlasla birgə olsun. Əməl xalis olsun, Allah üçün olsun. İnsanlar üçün olanda, əməl davamlı olmur. Çünki insanlar özləri, onların baxışları, düşüncələri, yanaşmaları davamlı deyil. Allah üçün isə əməl davamlı olur və insanın aqibətinə də faydası olur. İxlaslı olan əməl bizimlə əbədi mövcud olur.

### Arzular qısalmadan təqvaya çatılmaz

Təqvanın ikinci önəmli xüsusiyyəti - arzuların qısalığıdır. Bizim evimizi yıxan ən ciddi məsələ - arzuların uzunluğu ilə bağlıdır. Nə olacaq, sonra nə olacaq, daha sonra necə olacaq və s. Əxlaq mütəxəssisləri bəyan edirlər ki, insanların materialistik uzunmüddətli proqnozlaşdırmaları, yəni uzun arzular onları məhv edən mövzulardan biridir. Bəlkə heç həmin uzun arzuların həyata keçməsinin şəraiti, vəziyyəti yaranmayacaq, ərsəyə gəlib çıxmayacaq?! Amma o uzun arzular insanı bugünkü Allah bəndəsi kimi yaşamaqdan ayıran bir amildir. O insan ki, arzularını qısalda bilər, bu günün düşüncəsi ilə, bu gün Allaha necə bəndə ola bilməyin fikri ilə yaşasa, təqvaya yiyələnə bilər.

Bəzən insan on, iyirmi, əlli il sonra uşağının vəziyyətinin necə olacağını düşünür, amma düşünmür ki, mən nəinki on il, heç sabahı görməyə bilərəm. İnsan düşünməlidir ki, bu gün mən uşaq üçün nə edim. Bunu da dünya ilə bağlı düşünməməlidir, övladının Allah bəndəsi kimi, əxlaqlı, tərbiyəli, savadlı olması üçün nə edə biləri ilə bağlı düşünməlidir. On, iyirmi, otuz il sonraların xülyaları ilə insan bugünkü mənəvi vəzifələrini unudur, bu gün Allah hüzurunda olan vəzifələrindən yayınır. Təqvaya çatmaq istəyiriksə, təqvalılıq xüsusiyyətinin halımıza aid olmasını istəyiriksə, arzularımızı qısaltmalıyıq.

### Fürsətlərimizi qənimət biləк ki, təqvaya da yiyələnək

Təqvalılığın üçüncü ən ciddi xüsusiyyəti - fürsətləri qənimət bilməkdir. Biz nə bilirik ki, hələ nə qədər fürsətlərimiz var?! Bundan sonra nə qədər yaşamaq fürsətimiz var? Bizim ümumiyyətlə tövbə etmək halımız olacaqmı? Bizim bu gün-sabaha təxirə saldığımız məsələləri qaydaya qoymaq, özümüzü düzəltmək üçün fürsətimiz olacaqmı? Amma bu gün o fürsətimiz var. Nə qədər ki, nəfəsimiz gəlib-gedir, ağlımız işləyir, mükəlləf olmaq halımız var, bütün bunları edə bilərik. Deyə bilərik ki, bu gün davamlı təxirə saldığımız həmin o gündür. Niyə də olmasın ki?!

Təqvalılığın əlamətlərindən biri budur ki, insan fürsətlərini qənimət bilər. Bugünkü fürsətlərimdən yararlanım, bugünkü fürsətlərimdən istifadə edim. Düzələrəm, edərəm, qaydasına salaram... Bunlar hamısı şeytanın (lən) vəsvəsə və tələlərindən başqa bir şey deyil. Sabahı gözləyib, beş gün, beş il sonranı gözləyib o günləri görməyən o qədər insanlar oldu ki! Bəlkə bir də belə bir fürsətimiz daha olmayacaq?!

### Əməldən daha mühüm - onun qəbulu üçün çalışmaqdır

Əməl mühümdür, amma əməldən də mühüm - o əməlin qəbul olunması üçün çalışmaqdır. İnancımız, İslam dinimiz əməli önəmli bilir, amma yetərli bilmir. Əməl mühümdür, amma kifayət deyil. İslamın hədəflədiyi - qəbul olunan əməldir. Namaz mühümdür, vacibdir, amma İslamın hədəflədiyi, inancın hədəflədiyi, Rəbbin istədiyi - qəbul olunan namazdır. Digər bütün vacibatlar da belədir. Yəni, biz diqqətli olmalıyıq ki, etdiyimiz əməllərimiz qəbul olsun. Həzrət Əli (ə) buyurur: **"Əməlin qəbulu üçün himmətiniz əməlin özündən çox olsun. Çünki, təqva ilə bir yerdə olan əməl heç vaxt az deyil və bir əməl ki, qəbul olunur, necə az ola bilər?"**

Bizlər bəzən bunu unuduruq. Həzrət Əli (ə) buyurur ki, əməlin qəbulu üçün çox çalışın, himmət göstərin, səy edin və bu səy əməlin özündən kifayət qədər çox olsun. İnancımızın yanaşması budur ki, əməl kəmiyyəti dalınca getməyək. Əməlin keyfiyyətinin dalınca olaq. Kəmiyyət daxil olub həyatımıza. Hətta dini təzahürlərdə belə, həyatımıza kəmiyyət daxil olub. Bunun nəticəsində keyfiyyət unudulub, əməlin qəbul olmaqlığının əhəmiyyəti unudulub. Əməl etmək üçün yola çıxdıq, Allaha qovuşmaq üçün bu yola çıxdıq. Amma Allaha qovuşmaq, Allaha yaxınlaşmaq unuduldu, əməlin özü qaldı. Bununla da faciələrimiz başladı.

### Hansı qəlbdə təqva halı yerləşməz?

Bir həqiqət və gerçəklik var və buna hər birimiz diqqət etməli, önəm verməliyik. Allah Təala təqvanın mərkəzini, təqvanın mövcudiyyətini qəlbdə qərar verib. O, qəlbdir ki, orada təqva halı mövcuddur. Həzrət Əmirəlmöminin (ə) bizləri xəbərdar edir, bizə mühüm bir həqiqəti çatdırır, hansı qəlbdə təqvalılıq halının mövcud olmasının haram olduğunu çatdırır: **"Təqvanın dünyaya vurğun qəlbdə yerləşməsi haramdır".**

Biz əgər dünyanı hədəf seçsək, dünya bizim üçün hədəfə çevrilsə, bu zaman qəlbimizdə təqva halı əsla yerləşə bilməz. Bir var ki, insan dünyanı Allaha bəndə ola bilmək üçün vasitə seçsin. Bu zaman dünya gözəl, nurani, İlahi olur. Amma, əgər dünya öz-özlüyündə bizim üçün bir dəyərə çevrilsə, dünyaya vurğunluğumuz olsa, o halda məhv olmuşuq.

Qəlb iki halı qəbul etmir - ya dünyaya vurğun olur, ya da Allahın vurğunu olur. Dünyaya vurğun olan qəlbə təqvalılığın daxil olması, yerləşməsi haramdır. Ona görə də, biz dünyanın bütün təzahürləri ilə bağlı diqqətli olmalıyıq. Dünya deyildikdə bizim öz eqomuzdan tutmuş, çeşidli maddi təzahürlərdən tutmuş, məqamdan, övladdan, ailədən, maddi imkanlardan, məqamlardan, addan, sandan tutmuş hər şey nəzərdə tutulur. Əgər dünya və bütün bu təzahürlər bizim üçün hədəfə çevrilsə və biz onun vurğunu olsaq - özümüzü həlak edərik. Çünki o halda qəlbimiz bu dünyanın vurğunu olduğu üçün oraya İlahi eşq, orada təqva ruhiyyəsi daxil ola bilməz. Təbii olaraq bunun nəticəsində də bizlər özümüzü Allahın sevəcəyi bəndələr siyahısından çıxarmış oluruq. Əgər dünyanın vurğunu olsaq, qəlbimizdə təqva halı yerləşməyəcək və Allahın sevdiyi bəndə ola bilməyəcəyik. Amma təqvalı olsaq, təqvaya riayət etsək - Allahın açıq şəkildə sevgisini bəyan etdiyi insanların zümrəsinə daxil olmuş olarıq. Çünki, Allah Təala Öz Kitabında bir neçə yerdə təqvaya riayət edənləri sevməsini bəyan edib.

**Allahım, günahlarımızı bağışla!**

**Allahım, təqva halının qəlbimizdə yer tapmasını, bununla da sevdiyin bəndələrin zümrəsinə daxil olmamızı nəsib et!**

**Allahım, qəlbimizi təqva halından uzaqlaşdıran bütün amillərdən bizi pak et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 18 (6632) 27 yanvar 2017



## Boyu uzun olduğu üçün maşın sürməsi qadağan edildi

Məhkəmə boyu uzun olan britaniyalıya maşın sürməyi qadağan edib. Bu barədə lenta.ru saytı "The Telegraph"a istinadən xəbər verir. Polis 26 yaşlı Nyukasl şəhər sakini Adam Elliotu kabrioleti ilə gedəndə saxlayıb. Polislərin diqqətini çəkən kişinin şüşədən çıxan başı olub. Onlar sürücünün maşını ayaqüstə idarə etməsindən şübhələniblər. Daha sonra isə məlum olub ki, avtomobil satışı ilə məşğul olan kişinin boyu 200 santimetr təşkil edir. Buna görə də idarə etdiyi maşına zorla yerləşib. "Polis iddia edirdi ki, mən maşını ayaq üstə idarə etmişəm, amma bu, belə deyildi. Sadəcə, mən bu maşın üçün çox hündürəm.

İş daha sonra məhkəməyə verilib. Məhkəmədə isə ona bildirilib ki, təhlükəli şəkildə maşın idarə etdiyi üçün günahkardır. "Açıq-aydın görünür ki, siz maşını o cür idarə etməklə özünüzü göstərməyə, uzun boyunuzla fəxr etməyə çalışmısız. Bununla da digər sürücülərin diqqətini özünüzə cəlb edib, qəza vəziyyəti yaradırdız".

Elliota minimum fevralın 27-nə qədər sükan arxasında oturmağı qadağan ediblər. Həmin tarixdə məhkəmənin növbəti iclası keçiriləcək. Həmin iclasda gənc sürücü üçün cəza tədbiri seçiləcək.

# Meymun iti övladlığa götürdü

Hindistanın Madxya Pradeş ştatının Kareli şəhərində meymun evsiz bir iti öz himayəsinə götürüb. Meymun ondan bir dəqiqə belə olsun ayrı dayanmır. "Ruptly"də yayılan kadrlara görə, o, arxa ayaqları ilə sürətlə qaçır, qabaq ayaqları ilsə iti rahatlıqla tutur. Qeyri-adi hadisəyə bütün yerli sakinlər maraqla tamaşa edirlər. Eyni hadisə 2016-cı ildə də baş vermişdi. Həmin vaxt da Hindistanın Erod şəhərində bir makaka-rezus cinsi meymun bir balaca iti övladlığa götürmüşdü. O, balaca iti digər itlərdən almış və onu özündən bir addım da kənara buraxmırdı. Şahidlər isə güman edirdilər ki, meymun öz balasını itirdiyi üçün iti onun yerinə qoyur. Makaka-rezus dünyada meymun növlərinin ən geniş yayılanıdır. Onlara Hindistanda, Banqladeşdə, Pakistanda, Nepalda, Tailandda, Əfqanıstanda, Vyetnam və Çində rast gəlmək mümkündür. Hindlilər onu müqəddəs heyvan hesab edirlər.



# Bayramı keçirmək üçün evinə gedən çinli yolu azdı, polis bilet alıb göndərdi

Yeni il bayramını evində keçirmək istəyən Çin sakini velosipedlə yola düşüb. Amma yanlış istiqamətdə yol aldığı üçün evinə yox, başqa yerə gedib. Onu yolda Uxu şəhər polisi saxlayıb. O, polisə bildirib ki, işlədiyi Jicjao şəhərindən evinin yerləşdiyi Sisikara getməyə hazırlaşır. Amma asayiş keşikçiləri ona izah ediblər ki, yanlış istiqamətdə hərəkət edir. Velosiped həvəskarının evə çatması üçün daha 2 min kilometr məsafə qət etməsi lazım idi. Bir ay ərzində o, evindən 500 kilometr aralı düşüb. Kişinin sözlərinə görə, nəqliyyat vasitəsi olaraq velosipedi qənaət məqsədilə seçib. İsiqaməti isə yoldan keçənlərdən soruşub. Polislər ona doğma şəhərinə çatması üçün qatar bileti alıblar. Çindəki Yeni il bayramı yerli təqvimə görə 2017-ci ilin 28 yanvarına təsadüf edir. Bu ölkədə bayram tədbirləri 2 fevrala qədər davam edir.






## Belə qəribə vəsiyyət olmayıb

Amerikalı Leonard Maullun ilginc vəsiyyəti dünyanı şoka salıb. O, dostu Bill Berridən ölümündən sonra sevdiyi və hər gün baş çəkdiyi dəniz sahilinin üzərindən təyyarə ilə yerə 10 min dollar səpələməsini xahiş etmişdi. 5 dəqiqə ərzində 10 min dolları yerə səpələmək mümkün olub. Xərçəng xəstəliyindən dünyasını dəyişən Leonard Maull dostuna "mən öldükdən bir il sonra 10 min dolların 5, 10, 20 və 50 dollarlıq əskinazlar olaraq dəniz sahilindən camaatın üzərinə at" deyibmiş. Dostunun vəsiyyətini yerinə yetirmək istəyən Berri bu barədə öncə polisə müraciət edib. Hüquq-mühafizə orqanları bu aksiyada hər hansı təhlükə görməsələr də, bəzi önləyici tədbirlər də həyata keçiriblər. Bu səbəbdən də pulların camaat tərəfindən yığışdırılması zamanı hər hansı insident baş verməyib. Ancaq iki nəfər pulu əldə etmək üçün bir-birini itələdikləri üçün kiçik zədələnmələrə məruz qalaraq xəstəxanaya aparılıblar.




QOÇ - Olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Çünki fəaliyyət zəminində istədiyiniz manevrləri edə bilməyəcəksiniz. Axşama yaxın müqəddəs yerlərə gedin.

BUĞA - Dostluq münasibətində olduğunuz şəxslərlə aranızda soyuqluq baş verə bilər. Bunu nəzərə alıb şit zarafatlara, yalançı vədlərə yol verməyin. Saat 17-dən sonra maraqlı qonaqlıq sizi gözləyir.

ƏKİZLƏR - Maddi problemlərinizin qismən də olsa, qaydasına düşəcəyi gözlənilir. Lakin ünsiyyətdə olduğunuz şəxslərlə ehtiyatlı davranın. Əks halda, özünüzə qarşı inamı itirə bilərsiniz.

XƏRÇƏNG - Olduqca uğurlu bir gündür. Ətrafınızda olanların hamısı sizi sevindirəcək. Günün birinci yarısında təzə xəbərlər eşidəcəksiniz. Bu gün şəxsi büdcənizdə artım da labüddür.

ŞİR - Hansısa aktiv duruma yetişəcəyinizi düşünməyin. Çünki ünsiyyətdə olduğunuz insanlar bu gün real gücə malik olmayacaqlar. Buna baxmayaraq, maddi durumunuzda irəliləyiş ola bilər.

QIZ - Ay ərzində topladığınız yorğunluğu dəf etmək üçün daha çox istirahət etməyiniz məsləhətdir. Yeni iş təkliflərinə razılıq verməyə və uzaq səfərə çıxmağa tələsməyin. Qidanıza fikir verin.

TƏRƏZİ - İlin bu dövründə bir qayda olaraq ovqatınız xoş olur. Əsəblərinizi pozan hansısa hadisə baş vermir. Bu səbəbdən də nəzərdə tutduğunuz işləri arxayın görə bilərsiniz.

ƏQRƏB - Pulla bağlı müəyyən irəliləyişləriniz gözlənilsə də, soyuğa qarşı tədbirli olmalısınız. Yaxşı olar ki, vaxtınızı daha çox ev şəraitində keçirəsiniz. Bələd olmadığınız şəxslərin vədlərinə aldanmayın.

OXATAN- Sağlamlığınızla bağlı müəyyən çətinliklərin olacağını bəyan edən ulduzlar özünüzə diqqət yetirməyinizi məsləhət görür. Nahardan sonra qayğınıza qalanların yanında olun, uzaq yola çıxmayın.

OĞLAQ - Planetiniz olan Saturnun "hakimiyyətdə" olması şəxsi işlərinizdə müsbət dönüşə təkan verməkdədir. Odur ki, aktivlik nümayiş etdirməli, işgüzar əlaqələrinizi dərinləşdirməlisiniz.

SUTÖKƏN - Günorta saatlarına qədər mənfi yüklü Ay bürcünüzdə olduğu üçün neytral mövqedə dayanıb ciddi işlərinizi bütünlüklə təxirə salmalısınız. Heç kimə vəd verməyin. Gün ərzində sağlamlığınıza da diqqət yetirin.

BALIQLAR - Gələn ay görəcəyiniz işlər üçün mütləq danışıqlar aparmalısınız. Bu məsələyə laqeyd yanaşsanız, planlarınız pozula bilər. Uzaqda yaşayan doğmalarınızla əlaqə saxlayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Velosipedi çılpaq sürmək istədi, cəzalandı



Avstriyanın Fillax şəhərində güclü şaxtada çılpaq vəziyyətdə velosiped sürən şəxsi saxlayıblar. Bu barədə "The Local" xəbər verib. Çılpaq kişi bu vəziyyətdə hotelin qapısından içəri girmək istəyərkən diqqət çəkib. Bundan sonra o, hotelin geniş zalındakı yanğınsöndürmə siqnalizasiyasını yandırıb. Yanğınsöndürənlər isə öncə yerdə o şəxsin paltarlarını və ayaqqabılarını tapıblar. O, velosipedə hoppanıb, qaçmağa çalışıb, amma daha sonra velosipedini də atıb. Polis kişini şəhərin mərkəzində yaxalayıb. Saxlanılan şəxs sərxoş vəziyyətdə olub və havanın temperaturunun -13 dərəcə olduğunu hiss etməyib. 2016-cı ilin iyununda xəbər verildi ki, Böyük Britaniyada lüt velosipedçilərin yürüşü olub. 250 nəfərə yaxın könüllü Sautqempton və Bristol şəhərinə yığışıblar və 10 kilometrə yaxın məsafə qət ediblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.